*Şuşanın 270 illiyinə həsr olunur*

# ŞUŞA
## TARİXİ MƏNBƏLƏRDƏ

**Biblioqrafiya**



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Şuşanın 270 illiyinə həsr olunur*

# Ş U Ş A
# tarixi mənbələrdə

*Biblioqrafiya*

**BAKI - 2022**

**KBT: T3(2A)0-22**
**UOT: 94(479.24-21)**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Tərtib edən:** **Xeyransa Abbasova**

**Şuşa tarixi mənbələrdə**: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov. – Bakı, 2022. – 632 s.

Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa tarixi mənbələrdə" adlı biblioqrafiya Şuşaya həsr olunmuş ikinci fundamental biblioqrafiyadır. Şuşanın 270 illiyi münasibətilə tərtib olunmuş biblioqrafiyada Şuşanın tarixi, ictimai-siyasi həyatı, tarixi və memarlıq abidələri haqqında kitablar, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Kitabda Şuşa haqqında digər xarici dillərdə olan materiallar, eləcə də dünya milli və universitet kitabxanalarında saxlanılan ədəbiyyatlar ayrıca bölmələrdə verilmişdir. Biblioqrafiyanın sonunda "Əlavələr" bölməsində Şuşanın tarixinə dair qiymətli arxiv sənədləri də öz əksini tapmışdır.

Biblioqrafiya tarixçilər, politoloqlar, elmi tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 553 97 0

**© Azərbaycan Milli Kitabxanası, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*It is dedicated to the 270th anniversary of Shusha*

# SHUSHA
# historical sources

*Bibliography*

**BAKU- 2022**

**KBT: T3(2A)0-22**
**UOT: 94(479.24-21)**

**Scientific editor:** **Karim Tahirov,**
*Professor,*
*Honored Cultural worker*

**Compiled by:** **Kheyransa Abbasova**

**Shusha historical sources:** bibliography / compiled by: Kh.Abbasova; scientific ed.: K.M.Tahirov. – Baku, 2022. – 632 p.

The bibliography "Shusha historical sources" prepared by the National Library of Azerbaijan is the second fundamental bibliography dedicated to Shusha. In the bibliography compiled on the occasion of the 270th anniversary of Shusha, books about Shusha's history, socio-political life, historical and architectural monuments, rich materials published in periodicals, textbooks, collections are reflected. The book contains materials about Shusha in other foreign languages, as well as literature stored in national and university libraries around the world, in separate sections. At the end of the bibliography, in the "Additions" section, valuable archival documents on the history of Shusha are also reflected.

The bibliography is intended for historians, political scientists, scientific researchers, librarian-bibliographers and a wide range of readers.

ISBN 978 9952 553 97 0

**© Azerbaijan National Library, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Посвящается 270-летию Шуши*

# Ш У Ш А
# в исторических документах

*Библиография*

**Баку - 2022**

**KBT: T3(2A)0-22**
**UOT: 94(479.24-21**

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор,*
*Заслуженный работник культуры*

**Составитель:** **Хейранса Аббасова**

**Шуша в исторических документах**: библиография / Сост. Х.Аббасова; научный редактор: К.М.Тахиров. – Баку, 2022. – 632 с.

Подготовленная Азербайджанской Национальной Библиотекой библиография «Шуша в исторических документах» является второй фундаментальной библиографией, посвященной городу Шуша. В библиографии, составленной к 270-летию Шуши, представлены ценнейшие материалы по истории города, его общественно-политической жизни, историческим и архитектурным памятникам. Материалы отражены в книгах, периодической печати, учебниках, и различных тематических сборниках. В отдельных рубриках представлены материалы о Шуше на иностранных языках, а также литература, хранящаяся в национальных и университетских библиотеках мира. В конце библиографии в разделе «Приложение» отражены также ценные архивные документы по истории Шуши.

Фундаментальная библиография предназначена для историков, политологов, научных исследователей, библиотекарей-библиографов и широкой читательской аудитории.

ISBN 978 9952 553 97 0

**© Азербайджанская Национальная Библиотека,2022**

*"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".*

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli lideri**

*(Prezident sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə nitqindən, 6 may 1996)*

*"İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!...."*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan**

*(Şəhidlər xiyabanında xalqa müraciətindən,*
*8 noyabr 2020-ci il)*

## "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 yanvar 2022-ci il

# Распоряжение Президента Азербайджанской Республики об объявлении 2022 года в Азербайджанской Республике «Годом города Шуша»

Шуша - венец Карабаха, священное и дорогое место для нашего народа. Любовь к Шуше - неотъемлемая часть духовного бытия каждого азербайджанца.

Основанный в 1752 году карабахским ханом Панахали ханом город Шуша, который в этом году отметит свое 270-летие, прошел содержательный путь развития, сыграл исключительную роль в культурной и общественно-политической жизни Азербайджана и всего Южного Кавказа.

Этот город, который всегда сохраняет свой неповторимый исторический облик и сформированную им самобытную среду, взращенными им великими личностями вписал знаменательные страницы в нашу летопись литературной, культурной, научной и общественной мысли.

Стремительное развитие города Шуша в 70-х годах прошлого века тесно связано с именем нашего общенационального лидера Гейдара Алиева. Особые решения по развитию города были приняты по инициативе именно великого лидера. С тех пор созидательные работы в Шуше получили широкий размах, были предприняты важные шаги по увековечению памяти наших деятелей культуры.

Шуша, отличающаяся своим стратегическим положением, 8 мая 1992 года подверглась оккупации вооруженными силами Армении, развязавшими военную агрессию против Азербайджана. В период оккупации сотни исторических и культурных памятников в городе были уничтожены в результате актов вандализма.

Во время 44-дневной Отечественной войны, которую мы вели за наше правое дело, доблестная Азербайджанская армия 8 ноября 2020 года освободила город Шуша от оккупации. Победа в Шуше, приведшая к капитуляции Армении, стала торжеством героического духа нашего народа, вошла в нашу историю как День Победы.

Сразу после победы в Шуше наряду с возведением инфраструктуры в городе началось восстановление исторических и культурных памятников, для обеспечения оперативности, эффективности в организации созидательных работ большое внимание здесь было уделено государственному управлению, было учреждено Управление Государственного заповедника города Шуша.

Сегодня в Шуше, объявленной культурной столицей Азербайджана, реализуются гигантские проекты по восстановлению подлинного исторического облика города. Составной частью комплексных работ в культурной столице нашей страны являются разработка за короткий срок Генерального плана города Шуша, возвращение первоначального вида бюсту великого поэта Моллы Панаха Вагифа и комплексу его музея-мавзолея, открытие Дома-музея Бюльбюля и памятника Узеиру Гаджибейли, а также реставрация исторических, религиозных и архитектурных памятников.

Возрождение традиции проведения музыкального фестиваля «Харыбюльбюль» на Джыдыр дюзю и Дней поэзии Вагифа перед его грандиозным мавзолеем также свидетельствует о том, что Шуша стремительно возрождается и находится на пути возвращения к своей прежней полноценной культурной жизни.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики и учитывая историческое значение, высокую культурно-духовную ценность города Шуша для азербайджанского народа, постановляю:

1. Объявить 2022 год в Азербайджанской Республике «Годом города Шуша».

2. Кабинету Министров Азербайджанской Республики подготовить и осуществить план мероприятий в связи с «Годом города Шуша».

**Ильхам АЛИЕВ,**
Президент Азербайджанской Республики
Город Баку, 5 января 2022 года.

## Göstərici haqqında

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə 2022-ci il Şuşa ili elan edilmişdir.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Şuşaya həsr olunmuş ilk fundamental biblioqrafiya Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" (Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev) adlı biblioqrafiyadır.

Şuşanın 270 illik münasibətilə Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa tarixi mənbələrdə" adlı biblioqrafiya Şuşaya həsr olunmuş ikinci fundamental biblioqrafiyadır. Biblioqrafiyada "Şuşa şəhərinin tarixi və strateji əhəmiyyət", "Ermənilərin Şuşa şəhərində həyata keçirdikləri soyqırımlar tarixi mənbələrdə (1905-1989)", "Şuşanın erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi (1990-2020)", "Şuşa – 28 illik həsrətə son: Böyük zəfər!!", "Şuşa fatehləri– Zəfərin oğulları", "Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfərləri", "Zəfər Qurultayı: Dünya Azərbaycanlılarının V Qurultayı" və eləcədə Şuşa mədəniyyətinin tarixi inciləri, memarlıq abidələri, muzeyləri, ictimai-siyasi həyatı, görkəmli şəxsiyyətləri haqqında kitablarda, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Göstəricidəki materiallar 1830-2022-ci illəri əhatə edir.

Biblioqrafiyada Şuşa haqqında digər xarici dillərdə olan materiallar, eləcə də dünya milli və universitet kitabxanalarında saxlanılan ədəbiyyat ayrıca bölmələrdə verilmişdir.

Materiallar Azərbaycan, rus və başqa dillər üzrə verilmişdir. Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir.

Göstəricinin istifadəsini asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda Şuşa haqqında kitabların, məqalələrin adlar göstəricisi, Şuşa haqqında yazan müəlliflərin əlifba göstəriciləri verilmişdir.

Biblioqrafiya haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ – 1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.
**E–mail:** contact@anl.az.

# Об указателе

Распоряжением Президента Азербайджанской Республики и Главнокомандующего Вооруженными Силами страны господина Ильхама Алиева 2022 год был объявлен Годом Шуши.

Шуша, основанная в 1752 году Карабахским правителем Панахали ханом и празднующая в этом году свое 270-летие, прошла великий и славный путь развития. Город играл исключительную роль в культурной и общественно-политической жизни Азербайджана и всего Южного Кавказа.

Первая фундаментальная библиография, посвященная Шуше, была подготовлена Азербайджанской Национальной Библиотекой и называлась «Шуша – культурная столица Азербайджана» (Сост.Х.Аббасова; научный ред. К.М.Тахиров; ред.Э.Р.Наджиев).

Вторая фундаментальная библиография, подготовленная Азербайджанской Национальной Библиотекой и посвященная 270-летию Шуши называется «Шуша – В исторических документах». В библиографии представлена литература по темам: «Историческое и стратегическое значение города Шуши»; «Геноциды, осуществленные армянами в Шуше: в исторических документах (1905-1989)»; «Оккупация Шуши армянскими вооруженными формированиями (1990-2020)», «Шуша: конец 28-летней тоске: Великая Победа!!»; «Освободители Шуши – Сыны Победы»; «Визит Президента Азербайджана Ильхама Алиева и Первой Леди Мехрибан ханум Алиевой в Шушу»; «Съезд Победы: V Всемирный съезд азербайджанцев». Библиография отражает ценную информацию по истории и культуре Шуши, архитектурным достопримечательностям и музеям города, его общественно-политической жизни, великих уроженцах и представителях. Литература в указателе охватывает 1830-2022 годы и представляет материалы из книг, периодической печати, учебников и различных тематических сборников.

Отдельные рубрики библиографии отражают материалы о Шуше на иностранных языках, а также литературу, хранящуюся в различных мировых и университетских библиотеках.

Материалы представлены на азербайджанском, русском и других языках. Литература в библиографическом указателе представлена в хронологическом порядке, а в хронологических рамках соблюдается алфавитный порядок.

Для облегчения работы с указателемв конце его размещен именной указатель книг и статей о Шуше и алфавитный указатель авторов, посвятивших свои труды этому городу.

Заранее выражаем читателям благодарность за высказанные замечания и предложения и просим направлять их по адресу Национальной Библиотеки им. М.Ф.Ахундова.

**Адрес:** AZ – 1000, город Баку, ул. Хагани, 57.
**E–mail:**contact@anl.az.

## Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında – Zəfər Qurultayında Prezident İlham Əliyevin nitqi

*– Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!*

*Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.*

*Allah rəhmət eləsin!*

*Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.*

*Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.*

*Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir – hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.*

*Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim*

*mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.*

*Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız – həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.*

*Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur - nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən – 30 ilə yaxın davam edən danışıqlar,*

*sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.*

*İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da - noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək*

*onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.*

*Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksəkvəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.*

*2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, - onu da açıq deməliyəm, - bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.*

*Faktiki olaraq Minsk qrupu ondan sonra, hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.*

*Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, - əgər buna dirəniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.*

*Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu.*

*Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular - Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası*

*bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq.*

*Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.*

*Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Tocka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.*

*Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır.*

*Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.*

*Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.*

*Digər beynəlxalq təşkilatlar - məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və*

*gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.*

*Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.*

*Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz – həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin – xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.*

*Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, - titulu belə də gedib, - imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet haki-*

*miyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra –1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini – Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.*

*Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?*

*Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət "dəmir*

*yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun.*

*Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.*

*Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.*

*Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.*

*Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr - hakimiyyət uğrunda*

*gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, - çıxışımın əvvəlində mən bunu dedim, - mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.*

*Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.*

*Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.*

***Şuşa şəhəri,***
***22 aprel 2022***

## Qarabağın tacı Şuşanın
## əsas tarixi hadisələrinin xronologiyası

| | |
|---|---|
| **1752** | – Şuşa şəhərinin əsası görkəmli siyasi və dövlət xadimi Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. |
| **1756-1757** | – Sıldırım qayalar üzərində Şuşa qalasının tikintisi başa çatmışdır və Qarabağ xanlığının paytaxtı Pənahabada – Şuşaya köçürülmüşdür. |
| **1763-1806** | – Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı məhəllələri salınmışdır. |
| **1783/1784** | – Şəhərin ətrafında daha möhkəm, uzunluğu 2,5 km olan qala divarlarının tikintisi başlanmış və üç il ərzində başa çatdırılmışdı. |
| **1795** | – İyul ayında Ağa Məhəmməd şah Qacar Qarabağa – Şuşaya birinci dəfə hücum etmişdir və Şuşa qalasının 33 günlük mühasirədən sonra şəhəri ala bilməyərək geri dönmüşdür. |
| **1797** | – Bu ilin baharında Ağa Məhəmməd şah Qacar Qarabağa – Şuşaya ikinci dəfə hücum etmişdir. |
| **1807** | – Şuşada ilk dövlət məktəbi təsis edilmişdir. |
| **1830** | – 30 dekabrda Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli Nizamnaməsinə əsasən Azərbaycanda dünyəvi təhsil verən ilk qəza məktəbi – Şuşa Qəza Məktəbi fəaliyyətə başlamışdır. |
| **1840** | – İnzibati-ərazi islahatı nəticəsində Qarabağ əyaləti mərkəzi Şuşa şəhəri olmaqla Şuşa qəzası adlandırılmış və Kaspi vilayətinin tərkibinə daxil edilmişdir. |
| **1843** | – 21 mayda Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur. Gerbin ikiyə bölünmüş qalxanvarı lövhəsinin yarıdan yuxarı hissəsində |

pələng və yerdən çıxıb alovlanan qaz dilimləri təsvir olunmuş, gerbin yarıdan aşağı hissəsindəki yaşıl sahədə yəhərli qızılı rəngli at təsvir olunmuşdur ki, bu da həmin ərazidə yerli cins at növlərinin olmasından və atçılığın inkişafından xəbər verirdi.

**1846** – Kaspi vilayəti ləğv edildikdən sonra Şuşa qəzası yeni yaradılan Şamaxı quberniyasının tərkibinə daxil edilmişdir.

**1848** – Şuşada ilk teatr tamaşaları göstərilmişdir.

**1849** – Hacı Qulu Məhəmmədəli oğlunun sifarişi ilə milli memarlıq üslubda – üçmərtəbə, 46 otaq və 2 böyük zaldan ibarət olan “Hacı Qululların malikanəsi” inşa edilmişdir;
– Memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmiş Mehmandarovların qonaq evində “Xalça muzeyi” təşkil olunmuşdur;
– 23 apreldə Azərbaycanda ilk müsəlman şiə məktəbi olan Şuşa Müsəlman Şiə məktəbi fəaliyyətə başlamışdır.

**1867** – Yelizavetpol (Gəncə) quberniyası təşkil edilmiş və Şuşa qəzası onun tərkibinə qatılmışdır.

**1873** – Xurşidbanu Natəvan (III Qarabağ xanı Mehdiqulu Xan Cavanşirin qızı) Şuşa şəhər əhalisinin suya olan tələbatını ödəmək məqsədi ilə başlanğıcını şəhərdən yeddi kilometr aralıda yerləşən Sarıbaba dağının ətəyindən götürən bulaqdan Şuşaya saxsı borularla su kəməri çəkdirilmişdir (“Xan qızı bulağı”).

**1874-1875** – “Aşağı Gövhər ağa” məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir.

**1874** – Azərbaycanda, hətta bütün Zaqafqaziyada, ilk olan Şuşa şəhər məktəbi təsis edilmişdir.

**1875** – 27 martda “Şuşa xeyriyyə cəmiyyəti” yaradılmışdır;
– 26 oktyabrda Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayan “Şuşa Marinski Qız məktəbi” təsis edilmişdir.

| | |
|---|---|
| **1878-1880** | – Xan qızı Natəvan tərəfindən Merdinli məhəlləsində bir gün kişilərə, bir gün qadınlara xidmət göstərən “Şirin su hamamı” tikdirilmişdir (Layihənin memarı Kərbəlayı Səfixan Qarabaği). |
| **1881** | – 20 sentyabrda Şuşada 6 sinifli Realnı məktəbi-nin əsası qoyulmuşdur. |
| **1883** | – Memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən Şuşa şəhərinin “Saatlı” tarixi məscid inşa edilmişdir;<br>– Şuşa şəhərinin mərkəzi meydanında yerləşən “Yuxarı Gövhər ağa” məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir;<br>– Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müəllimi, görkəmli pedaqoq Səfərəli bəy Vəlibəyov tərəfindən “Səfərəli bəyin məktəbi” adlı anadilli məktəb açılmışdır. |
| **1893** | – Camal bəy Fətəlibəyov tərəfindən üçüncü dərəcəli xüsusi oğlan məktəbi olan “Şuşa Rus-Azərbaycan məktəbi” açılmışdır;<br>– Mirzə Muxtar Məmmədov tərəfindən Rus-Azərbaycan məktəbi olan “Mirzə Muxtar məktəbi” açılmışdır. |
| **1894** | – Şuşada qadın ibtidai məktəbinin əsası qoyulmuşdur. |
| **1897** | – Fevralda Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən ilk dəfə olaraq şəhər kitabxanası təşkil olunmuşdur. |
| **1896** | – 6 oktyabrda Şuşa ziyalılarının təşəbbüsü ilə iki sinifdən ibarət “Şuşa Nikolayevski rus-tatar” məktəbi açılmışdır. |
| **1899** | – Mustafa bəy Mehmandarov “Təzə məhəllə bulağı” tikdirmişdir. |
| **1905-1907** | – Şəhər ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. |
| **1906** | – Əhməd bəy Ağayevin təşəbbüsü ilə erməni daşnaklarına qarşı Qafqaz ümummüsəlman müdafiə komitəsi –“Difai” adlı milli partiya yaradılmışdır. |
| **1911-1914** | – “Şuşinski listok” adlı liberal-burjua istiqamətli ictimai-siyasi və ədəbi qəzet çap olunmuşdur. |

| | |
|---|---|
| **1913-1914** | – "Şuşinskaya jizn" adlı həftədə dörd dəfə çıxan dörd səhifəlik ictimai-siyasi və ədəbi qəzet çap olunmuşdur. |
| **1915** | – Xudadat bəy Əzizbəyovun təşəbbüsü ilə "Rəşidiyyə" məktəbi fəaliyyətə başlamışdır. |
| **1917** | – Bir qrup ziyalının təşəbbüsü ilə Müsəlman Milli Komitəsi yaradılmışdır və onun sədri Lütvəli bəy Behbudov seçilmişdir. |
| **1918-1920** | – Şuşa şəhərinin türk-müsəlman əhalisi ermənilər tərəfindən soyqırıma məruz qalmış və şəhərin xeyli hissəsi ermənilər tərəfindən yandırılmışdır. |
| **1919** | – Yanvar ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Şuşa qəzasını da əhatə edən müvəqqəti "Qarabağ general-qubernatorluğu" yaradılmışdır. |
| **1922** | – "Şuşa Mədəni-maarif texnikumu" və "İncə-sənət məktəbi" yaradılmışdır. |
| **1923** | – Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul tarixli dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmış, Şuşa qəzasının bir hissəsi onun tərkibinə daxil edilmişdir. |
| **1930** | – 8 avqust tarixində Şuşa rayonu yaradılmışdır. |
| **1930** | – Şuşada ilk Musiqi texnikumu yaradılmış və ilk direktoru məşhur tarzən-pedaqoq Həmzə Əliyev olmuşdur. |
| **1932** | – 10 oktyabrda Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə Xan qızı Natəvanın evində ilk uşaq musiqi məktəbi – "Şuşa Musiqi məktəbi" fəaliyyətə başlamışdır;<br>– "Azərbaycan Həmkarlar İttifaqı Şurasının 1 saylı istirahət evi" yaradılmışdır;<br>– Hazırda Şuşa rayon İcra Hakimiyyətinin rəsmi orqanı olan "Şuşa" qəzeti müxtəlif adlarla çap olunmağa başlamışdır ("Sosializm maldarlığı"; "Kolxoz bayrağı"; "Şuşa kurortu"; "Şuşa"). |
| **1938** | – Fevral ayında "Şuşa Dövlət Kolxoz və Sovxoz Teatrı" yaradılmışdır. |

**1943-1949** – "Şuşa Dövlət Kolxoz və Sovxoz Teatrı"nın əsasında "Şuşa Dövlət Musiqili Dram Teatrı" yaradılmışdır və ona Üzeyir bəy Hacıbəylinin adı verilmişdir.

**1959** – Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəy-linin Şuşa şəhərində uşaqlıq illərini keçirdiyi evdə dahi bəstəkarın ev-muzeyi yaradılmışdır.

**1961** – Respublika Kommunal Təsərrüfatı Nazirliyi işçilərinin uşaqları üçün şəhərin səfalı guşələrindən biri olan "Üç mıx" ətrafında 100 nəfərlik pioner düşərgəsi istifadəyə verilmişdir.

**1965** – Turşsuda 200 yerlik pansionat tikilmişdir.

**1967** – Vaqif küçəsində Molla Pənah Vaqifin büstünün açılışı olmuşdur.

**1969** – Ən böyük tarixi eksponat olan Gövhər ağa məscidində Şuşa Tarix Muzeyi fəaliyyətə başlamışdır.

**1976** – 4 noyabrda Azərbaycan KP MK-nin katibi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nin və Azərbaycan SSR Nazirlər Sovetinin "Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərarı olmuşdur.

**1977** – 10 avqustda Heydər Əliyevin göstərişi ilə Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə Şuşa şəhəri "Tarixi-Memarlıq Qoruğu" elan edilmişdir.

**1978** – Azərbaycan professional vokal sənətinin banisi Bülbülün anadan olduğu və uşaqlıq illərini keçirdiyi evində (iki otaq, 369 eksponatdan ibarət) "Bülbülün ev muzeyi"nin açılışı olmuşdur.

**1979** – 12 yanvarda Heydər Əliyev Azərbaycan KP MK-nin I katibi kimi Dağlıq Qarabağa, o cümlədən Şuşaya səfərə gəlmişdir.

**1980** – Şuşa Dövlət Memarlıq Qoruğu İdarəsi əməkdaşlarının təşəbbüsü və Şuşa şəhər əhalisinin köməyi ilə "Gəncə qapısı"nın mühafizə zonasında xarakterinə görə respublikamızda birinci olan "Açıq muzey" təşkil olunmuşdur.

**1982** – 14 yanvarda Azərbaycan KP MK-nin Birinci katibi Heydər Əliyevin iştirakı ilə məşhur Azərbaycan şairi və ictimai-siyasi xadimi Molla Pənah Vaqifin Şuşada yerləşən muzey-məqbərə kompleksinin açılışı olmuşdur;
– Azərbaycan KP MK-nin Birinci katibi Heydər Əliyevin iştirakı ilə məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünün açılışı olmuşdur;
– 29 iyulda Azərbaycan KP MK-nin Birinci katibi Heydər Əliyev Şuşada "Poeziya Evi"nin açılışında və "Vaqif poeziya günləri"ndə iştirak etmişdir;

**1983** – "Bülbülün ev muzeyi"nin təmirdən sonra təntə-nəli açılışı olmuşdur.

**1984** – 29 iyul Mehmandarovların yaşayış kompleksinə daxil olan məhəllə məscidi bərpadan sonra "Dərman bitkiləri muzeyi" kimi fəaliyyətə başlamışdır;
– Rövşən Bayramovun rəhbərliyi ilə Şuşa şəhər Rəsm Qalereyası (Tacir Abbasqulu ağa Zöhrabbəyova məxsus möhtəşəm üç mərtəbə, on otaqdan ibarət olan malikanədə) yaradılmışdır.

**1985** – Xurşidbanu Natəvan adına Respublika uşaq (vərəm) sanatoriyası yaradılmışdır.

**1987** – Xurşidbanu Natəvanın evində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşidbanu Natəvan adına Qarabağ filialı fəaliyyətə başlamışdır;
– 19 mayda Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı Şuşa şəhərində, XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmandarovların malikanəsində fəaliyyətə başlamışdır.

**1988** – Şuşa şəhəri Azərbaycan Respublikasının Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdir.

**1989** – Cıdır düzündə "Xarı bülbül" Ümumittifaq muğam festivalı keçirilmişdir;
– Şuşada televiziya ötürücü stansiyası fəaliyyətə başlamışdır.

**1990** – Bülbülcan adına Uşaq musiqi məktəbi yaradılmışdır;

– Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konser-vatoriyasının Şuşa filialı açılmışdır;
– Şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas "Mir Möhsün Nəvvabın ev-muzeyi" açılmışdır;
– Respublika Bəstəkarlar İttifaqının Şuşa təşkilatı təsis edilmişdir.

**1992** – 8 mayda Şuşa şəhəri faciəli şəkildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir;
– 25 mayda Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa Dövlət Musiqili Dram Teatrı"nın fəaliyyəti Bakıda bərpa olunmuşdur.

**1993** – Üzeyir Hacıbəyli, Xan qızı Natəvan, Bülbülün ermənilər tərəfindən Şuşada güllələnmiş heykəlləri ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıya gətirilmiş və Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdir.

**2000** – Azərbaycan Respublikası Mədəniyyət Nazir-liyinin təşəbbüsü ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Şuşanın 250 illiyinə həsr edilmiş elmi konfrans keçirilmişdir.

**2001** – Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu YUNESKO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilmişdir;
– "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə Şuşa ərazisindəki abidələr siyahıya alınmış, dövlət mühafizəsinə götürülmüşdür;
– Akademik Milli Dram Teatrında Şuşaya həsr olunmuş "Şuşa-250" mövzusunda elmi praktiki konfrans keçirilmişdir.

**2006** – Azərbaycanın bir sıra mədəniyyət təşkilatları Bakı İncəsənət Mərkəzinin təşəbbüsü ilə "Şuşa uğrunda" Ümumazərbaycan İctimai-Mədəni Hərəkatını təsis etmişdirlər.

**2007** – M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında Çingiz Qacarın "Qədim Şuşa" kitabının təqdimatı olmuşdur;

**2009** – M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında Şuşanın tarixi yerlərini əks etdirən "Şuşa Qarabağın tacıdır" adlı sərgi təşkil edilmişdir;
– Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Rusiyanın Nijni Novqorod şəhərindəki "Krasnoye Sormovo" gəmiqayırma zavodunda inşa olunan "Şuşa" tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir;
– ABŞ-da Azərbaycanın qədim Şuşa şəhərinə həsr olunmuş poçt markası buraxılmışdır.

**2010** – Şuşa şəhərinin 260 illik yubileyi qeyd olunmuşdur;

**2011** – "Dağlıq Qarabağ Bölgəsi Azərbaycanlılarının İcması" İctimai Birliyinin qərargahında Şuşanın erməni silahlı qüvvələri tərəfindən işğalının 19-cu ildönümü ilə bağlı "Şuşa Azərbaycanın tarixi mədəniyyət mərkəzidir" mövzusunda elmi konfrans keçirilmişdir;
– Qarabağın Azərbaycan İcmasının və "Regional hüquqi və iqtisadi maarifləndirmə" İctimai Birliyinin Şuşa şəhəri haqqında hazırladığı "Dağıdılmış mədəniyyət beşiyi – Şuşa" filminin təqdimatı keçirilmişdir. Filmin baş məsləhətçisi siyasi elmlər üzrə fəlsəfə doktoru Qənirə Paşayeva, rejissoru Etibar Məmmədov, ssenari müəllifi Büllur Cavadqızı, redaktoru Kəmalə Paşayeva, elmi rəyçisi tarix elmləri doktoru Musa Qasımovdur;
– Şuşa YUNESKO-nun musiqi şəhəri nominasiyasına təqdim edilmişdir.

**2012** – 9 apreldə "Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır;
– Ankarada "Dağıdılmış mədəniyyət beşiyi – Şuşa" filminin (ideya müəllifi və baş məsləhətçisi siyasi elmlər üzrə fəlsəfə doktoru Qənirə Paşayeva) təqdimatı olmuşdur;
– "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyində "Ruhum Qarabağlıdır" filminin təqdimat mərasimi keçirilmişdir;
– Dövlət İdarəçilik Akademiyasında Şuşanın işğalının 20-ci ildönümünə həsr olunmuş "Şuşa: Azərbaycanın strateji əhə-

miyyətli tarixi mədəniyyət mərkəzi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında "20 il Şuşasız" adlı kitab sərgisinin açılışı və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin hazırladığı "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir" adlı kitab-kataloqunun təqdimat mərasimi keçiril-mişdir;
– Yeni Azərbaycan Partiyası Gənclər Birliyində Şuşa şəhərinin işğalının 20-ci ildönümünə həsr olunmuş "Şuşa – güllələnmiş heykəllər və ruhlar şəhəri" adlı fotosərgi təşkil edilmişdir;
– Azərbaycanın Macarıstandakı səfirliyinin təşəbbüsü ilə Macarıstan Poçtu qədim mədəniyyət mərkəzi olan Şuşa şəhrinin erməni silahlı birləşmələri tərəfindən işğal edilməsinin 20 illiyi ilə əlaqədar xatirə markası buraxmışdır;
– Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Şuşa şəhərinin işğalının 20 illiyi ilə əlaqədar "Şuşa səsləyir..." adlı tədbir keçirilmişdir;
– Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının təşəbbüsü ilə Şuşa şəhərinin işğalının 20 illiyi ilə əlaqədar "Şuşaya azadlıq" adlı beynəlxalq kompaniyaya start verilmişdir;
– "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyində ulu öndər Heydər Əliyevin 1982-ci ilin iyulun 29-da Şuşada Molla Pənah Vaqifin poeziya günlərində iştirakının 30-cu ildönümünə həsr olunmuş "dəyirmi masa" keçirilmişdir.

**2013** – Aprelin 11-də "Avropa ətrafında Avropa" devizi altında Parisdə keçirilən Böyük Avropanın müəllif və incəsənət filmlərinin VIII festivalı çərçivəsində Avropa-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə "Entrepot" kino zalında Böyük Britaniya kinematoqrafçıları Endryu Tompsonun və Lüsi Beleyin Şuşa qaçqınlarının həyatından çəkdikləri "Həsrət" sənədli filmi nümayiş etdirilmişdir.

**2017** – M.F.Axundov adına Milli Kitabxanada Şuşa Şəhər kitabxanasının yaranmasının 120 illiyinə həsr edilən "Şuşanın mədəni irsi unudulmur" adlı tədbir keçirilmişdir.

**2019** – 8 mayda Azərbaycan Milli Kitabxanasında Şuşa şəhərinin ermənilər tərəfindən işğalının 27-ci ildönümünə həsr olunmuş "Qarabağın tacı Şuşa" adlı geniş kitab sərgisi açılmışdır;

– “Azərkitab” kitab təbliğatı mərkəzində “Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək” İctimai Birliyinin təşkilatçılığı ilə Şuşanın işğalının 27-ci ildönümünə həsr edilən “Zirvələrin zümrüd tacının dumanlı taleyi...” adlı tədbir keçirilmişdir;

**2020** – Noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Şuşa şəhərini Ermənistan Silahlı Qüvvələrindən azad etmişdir;

– 8 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi ilə əlaqədar Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etmişdir;

– 8 noyabrda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində tarixi qələbə ilə bağlı paylaşım etmişdir;

– Noyabrın 20-də Azərbaycan Respublikasının Milli Məclisində Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanun layihəsi müzakirə edilmişdir;

– 26 noyabrda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının “Şuşanın azad olunmasına görə” medalının Əsasnaməsi: Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanunu ilə təsdiq etmişdir;

– 29 dekabrda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında” Sərəncam imzalamışdır;

– 1 dekabrda Azərbaycan Milli Kitabxanası “Qarabağın incisi Şuşa” adlı Elektron məlumat bazasını virtual rejimdə istifadəçilərə təqdim etmişdir;

– Heydər Əliyev Fondunun dəstəyi ilə "Mənim ürəyim Şuşa" musiqi kompozisiyası hazırlanmışdır (sözləri Çexiyada yaşayan azərbaycanlı şairə Leyla Beqim, musiqisi Almaniyada yaşayan həmyerlimiz, skripkaçı Anar Bramodur);
– Dövlət Tərcümə Mərkəzi tərəfindən Şuşa şəhərində ermənilərin törətdiyi vəhşiliklərdən bəhs edən "Şuşa həqiqətləri" adlı videoçarx hazırlanmışdır;

**2021** – 14 yanvarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olmuşdur;
– 15 yanvarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş Şuşa şəhərinə səfərlə bağlı paylaşım etmişdir;
– 16 martda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşmışdır;
– 16 martda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində səfərdə olublar;
– 16 martda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalını alovlandırıblar;
– 16 martda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cıdır düzündə Azərbaycan xalqına müraciət etmişdir;
– 16 martda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyov, Xan qızı Natəvan, Bülbülün güllələnmiş heykəlləri Şuşaya gətirilmişdir;
– 7 mayda "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır;
– 8 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır;
– 12 mayda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Prezident İlham Əliyevlə Qarabağa növbəti səfərdən görüntülər paylaşmışdır;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyasının açılışında iştirak ediblər;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada "Xarıbülbül" otelinin yenidənqurmadan sonra açılışında iştirak ediblər;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada "Xarıbülbül" otelinin nəzdindəki 48 mənzilli korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada yeni məscidin təməlini qoyublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Xüsusi nümayəndəliyin inzibati binası ilə tanış olublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçiriblər;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva "Xan qızı" bulağında olublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanış olublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olublar;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməl qoyma tədbirində iştirak ediblər;

– 12-13 mayda "Xarıbülbül" musiqi festivalı keçirilmişdir;

– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər;
– 12 mayda "Xarıbülbül" musiqi festivalı çərçivəsində möhtəşəm atəşfəşanlıq olmuşdur;
– 12 mayda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşada təşkil olunmuş atəşfəşanlığın görüntülərini paylaşmışdır;
– 13 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Yuxarı Gövhər ağa məscidində olublar;
– 13 mayda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində "Xarıbülbül" musiqi festivalının qala-konsertindən görüntülər paylaşmışdır;
– 13 mayda Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı qala-konsertlə başa çatmışdır;
– 31 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq etmişdir;
– 14 iyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunda və ya Zəfər yolunda görülən işlərlə tanış olmuşdur;
– 14 iyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoymuşdur;
– 15 iyunda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan Şuşaya səfər ediblər;
– 15 iyunda Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşada rəsmi qarşılanma mərasimi olmuşdur;
– 15 iyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəllərini ziyarət ediblər;
– 15 iyunda Azərbaycan-Türkiyə: dostluğun, qardaşlığın, birliyin təntənəsi: Azərbaycan Respublikası ilə Türkiyə Respub-

likası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanmışdır;
– 15 iyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan "Xan qızı" bulağında olublar;
– 15 iyunda Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunmuşdur;
– 22 iyunda "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Fərman imzalamışdır;
– 22 iyunda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli qanununun tətbiqi barədə fərman imzalamışdır;
– 24 iyunda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezident İlham Əliyev sərəncam imzalamışdır;
– 9 iyulda Azərbaycandakı diplomatik korpusun və beynəlxalq təşkilatların 100-dən çox nümayəndəsi Şuşa şəhərinə səfər etmişdir;
– 30 iyulda Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrləri Şuşaya səfər etmişdir;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada yeni yaşayış massivinin təməlqoyma tədbirində iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Otel və Konfrans Mərkəzi"nin təməlqoyma tədbirində iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olublar;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışında iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan musiqi

mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı mərasimində iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı mərasimində iştirak ediblər, görülən işlərlə tanış olublar;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı mərasimində iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri ilə tanış olublar;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin açılışında iştirak ediblər;
– 29 avqustda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub;
– 30 avqustda Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı keçirildi;
– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər;
– 18-24 sentyabr tarixində Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə Üzeyir Hacıbəyli adına XIII Beynəlxalq Musiqi Festivalı baş tutub;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "8 Noyabr – Zəfər Günü" adlı metodik vəsaiti onlayn rejimdə istifadəçilərə təqdim etmişdir;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Şuşanın işğaldan azad olunması münasibətilə "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiyanı nəşr etdirmişdir.

– 7 oktyabrda Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, habelə tanınmış politoloq və siyasi şərhçilərin Şuşa şəhərinə səfəri təşkil edilmişdir;

– 8 oktyabrda işğal dövründə həyata keçirilmiş qanunsuz fəaliyyətlə bağlı, həm də hazırda aparılan bərpa-quruculuq işləri ilə əlaqədar olaraq Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin mətbuat məsələləri üzrə cavabdeh şəxsləri və xarici jurnalistlərin ətraflı məlumatlandırmaq üçün Şuşa şəhərinə səfəri təşkil edilmişdir;

– 25 oktyabrda Türk Dünyası Araşdırmaları İnstitutunun müdiri Nadim Macitin və institutun əməkdaşları Vəfa Qurbanın, Aygül Uçarın, Rüçhan Buburun daxil olduğu tədqiqat qrupu Şuşa şəhərinə səfər etmişdir.

– 27-28 oktyabrda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə Türkiyənin Dəyanət işləri başqanı Ali Erbaşın rəhbərlik etdiyi nümayəndə heyəti Şuşada iki günlük səfərdə olmuşdur;

– 4 noyabrda Azərbaycan Milli Kitabxanasında "Qarabağ dastanı: Otuz ilin həsrəti – 44 günün Zəfəri" və "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: Biblioqrafiya" kitablarının təqdimat mərasimi keçirilmişdir;

– 5 noyabrda Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə *www.shusha.today* portalının təqdimatı olmuşdur;

– 5 noyabrda Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyasının birgə istehsal etdiyi "Şuşa, sən azadsan!" sənədli filmi geniş auditoriyaya təqdim olunmuşdur;

– 10 noyabrda Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bor Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti mədəniyyət paytaxtında səfərdə olmuşdurlar;

– 11 noyabrda Beynəlxalq Muğam Mərkəzində "SOCAR Media"nın dəstəyi ilə "QULP STUDİO" tərəfindən hazırlanmış "Şuşa" sənədli filminin təqdimatı keçirilmişdir. Sənədli filmin müəllifi Əməkdar jurnalist Mübariz Əsgərov, rejissoru Elçin Elxanlı, prodüseri İntiqam Cəfərovdur.

– 13 noyabrda Prezident Administrasiyasının təmsilçiləri, Milli Məclisin deputatları və Rusiyanın tanınmış ekspert, politoloq və

elm adamlarının iştirak ilə "10 noyabr razılaşması: Cənubi Qafqazda sülh üçün əsas" mövzusunda beynəlxalq konfrans keçirilmişdir;
– 15 noyabrda Rusiyanın "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko Şuşaya səfər etmişdir;
– Noyabrda Avropa Parlamentinin himayədarlığı, "Romualdo Del Bianco" Fondunun və "Life Beyond Tourism – Travel to Dialogue" Hərəkatının təşkilatçılığı ilə Florensiyada keçirilən "Dünya Mədəni Özünüifadə Festivalı" çərçivəsində ATMU-nun tələbələri "Şuşa – dağlardan gələn səsin harmoniyası" mövzularında təqdimatlarla çıxış etmişdirlər;
– 24 noyabrda Azərbaycan Respublikası Nazirlər Kabineti "Şuşa şəhərinin ərazisində üzərində və mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin Siyahısı"nın təsdiq edilməsi barədə" №366 qərarını imzalamışdır;
– 24 noyabrda Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə Türkiyə Respublikası İstanbul şəhərinin baş prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya rəsmi səfər etmişdir;
– 26 noyabrda Azərbaycan Respublikası Nazirlər Kabineti "Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının sərhədləri"nin təsdiq edilməsi haqqında № 370 qərarını imzalamışdır;
– 5 dekabrda təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti: Nobel mükafatçısı Əziz Sancar, Türkiyə Ali Təhsil Şurası sədri Erol Özvar, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, UNEC-in rektoru Ədalət Muradov və UNEC İqtisadi Forumu çərçivəsində ölkəmizə gələn əcnəbi tədqiqatçılar Şuşada səfərdə olmuşdular;
– 7 dekabrda Azərbaycan Respublikası Nazirlər Kabineti "Şuşa dövlət tarix-arxitektura qoruğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1985-ci il 27 dekabr tarixli 414 nömrəli Qərarının ləğv edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli, "Azərbaycan Respublikasında avtomobil yollarının təsnifat göstəriciləri"nin və "Ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 1 iyul tarixli 91 nömrəli, "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi

barədə" 2008-ci il 18 mart tarixli 74 nömrəli və "Atçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2008-ci il 23 aprel tarixli 93 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında № 383 qərarını imzalamışdır.

**2022** – 5 yanvarda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" sərəncam imzalamışdır;
– 13 yanvarda Xətai Sənət Mərkəzində Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının və 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Mədəniyyətimizin incisi Şuşa" adlı rəsm sərgisi keçirilmişdir;
– 15 yanvarda 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə əlaqədar Azərbaycan Milli Kitabxanası tərəfindən Şuşa haqqında rəsmi sənədlər, Azərbaycanın görkəmli şəxsiyyətlərinin fikirləri, şəhərin tarixi, mədəniyyəti, coğrafiyası haqqında kitablar, eləcə də dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotoların nümayiş olunduğu "Şuşa" adlı virtual sərgi hazırlanmışdır;
– 1 fevralda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiq etmişdir;
– 7 fevralda Azərbaycan Milli Kitabxanasında "Şuşa ili"nin açılış mərasiminə həsr olunan "Şuşa-Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya" və "Xan Şuşinski. Biblioqrafiya" kitablarının təqdimat mərasimi keçirilmişdir;
– 12 fevralda Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanununu imzalamışdır;
– 16 fevralda 21 ölkədən olan tanınmış səyyahlar Şuşa şəhərinə səfər etmişdirlər;
– 23 fevralda Moldova parlamentinin sədri İqor Qrosunun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşa şəhərlərinə səfər etmişdirlər;
– 25 fevralda xarici jurnalistlərin Şuşa şəhərinə səfəri təşkil edilmişdir;

– 25 fevralda Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov "Şuşa İli" ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə" sərəncam imzalamışdır;
– 25 fevralda Srebrenitsa faciəsi qurbanlarının təmsil olunduğu QHT-lərin nümayəndələri işğaldan azad edilmiş Şuşa şəhərinə səfər etmişdirlər;
– 15 martda Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin "Şuşa İli" münasibətilə həyata keçirdiyi daha bir təşəbbüsün – "Şuşa söhbətləri" (Shusha talks) layihəsinin təqdimatı keçirilmişdir;
– 18 martda Azərbaycan Respublikasının yüksək səviyyəli dövlət və hökumət rəsmiləri, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi, BMT-nin Azərbaycandakı qurumlarının rəhbər şəxsləri iştirak ilə Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı keçirilmişdir;
– 31 martda Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilmişdir;
– 13 apreldə Bakı Kitab Mərkəzində Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində fəaliyyət göstərən "My Way" Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə "Qədim Şuşa" adlı rəsm sərgisi keçirilib;
– Mədəniyyət Nazirliyi qədim şəhərimizin zəngin mədəni irsini tanıtmaq məqsədilə "Şuşa mədəniyyətinin inciləri" adlı layihəyə start vermişdir. Layihə yeddi bölmədən: "Şuşanın memarlıq salnaməsi", "Azərbaycan musiqisinin məbədi – Şuşa", "Muğam ocağı – Şuşa", "Qarabağ xalçaçılıq məktəbi – Şuşa", "Şuşanın ədəbi həyatı", "Şuşanın simaları", "Şuşa milli geyim üslubu" ibarətdir.
– 16 apreldə Gürcüstanın mədəniyyət xadimləri, ekoloqlar, türkoloqlar və blogerlərindən ibarət nümayəndə heyəti Şuşa şəhərinə səfər etmişdirlər;
– 19 apreldə Mədəniyyət Nazirliyinin, Azərbaycan və Özbəkistan Yazıçılar Birliyinin nümayəndələri, habelə şairləri iştirak ilə "Məclisi Fəramuşan" şairlər məclisinin rəsmi açılışı olmuşdur;

– 20 apreldə "Şuşa İli" münasibətilə 270 yaşlı şəhərimizin tarixi-mədəni zənginliklərinin öyrənilməsi və təbliği məqsədilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Beynəlxalq Multikulturalizm Mərkəzinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan Milli İncəsənət Muzeyində "Şuşa – Azərbaycan mədəniyyətinin paytaxtı" adlı kataloqun təqdimat mərasimi keçirilmişdir;
– 21 apreldə Azərbaycan Milli Kitabxanasının və "Aytam" Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyinin birgə təşkilatçılığı ilə Milli Kitabxananın nəzdində fəaliyyət göstərən "Açıq kitabxana"da "Doğma Şuşa" adlı tədbir keçirilmişdir;
– 22-23 apreldə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı keçirilmişdir;
– 22 apreldə Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləmişdir;
– 23 apreldə Dünya Azərbaycanlılarının V Qurultayının qətnaməsi qəbul olunmuşdur;
– 28 apreldə latviyalı rəssam Dase Ştrausanın "Qarabağ atları" adlı rəsm sərgisinin açılış mərasimi keçirilmişdir;
– 28 apreldə Rumıniya Parlamentinin Nümayəndələr Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Kristian İvanutsanın başçılıq etdiyi nümayəndə heyəti Şuşa şəhərinə səfər etmişdilər;
– 28 apreldə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ADA Universitetinin təşkilatçılığı ilə dünyanın 20-dən çox ölkəsindən 50-yə yaxın xarici beyin mərkəzlərinin ekspertləri, tədqiqatçı alimlər və media nümayəndələrinin iştirak ilə "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forum keçirilmişdir;
– 28 apreldə "Şuşa ili" çərçivəsində Bakı Slavyan Universitetində (BSU) Azərbaycan Rəssamlar İttifaqı ilə birgə təşkil olunan Xalq rəssamı, professor Arif Hüseynovun əsərlərindən ibarət "Şuşanın görkəmli musiqi xadimləri" adlı sərginin ilk nümayişi olmuşdur;
– 6 mayda M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa əhalisinin XIX əsr geyim mədəniyyəti, onun təsnifatı, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapan "Şuşa milli geyimləri" adlı virtual sərgi hazırlanmışdır;

– 7 mayda Tbilisidə Vaxtanq Salaridze adına konsert zalında Azərbaycanın Gürcüstandakı səfirliyinin, Azərbaycan Respublikasının Mədəniyyət və Təhsil nazirliklərinin, Tbilisidəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin və Azərbaycan Milli Konservatoriyasının tərkibindəki İncəsənət Gimnaziyasının birgə təşkilatçılığı ilə "Şuşa İli"nə həsr olunmuş "Cənnətim Qarabağ" adlı musiqili gecə keçirilmişdir;
– 7-8 mayda Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın Mədəniyyət Paytaxtında şəhərin qədimliyi, gözəlliyi, Azərbaycan xalqının qonaqpərvərliyinin nümayiş olunduğu müxtəlif ölkələrin kulinarlarının bir araya gəldiyi "Birinci Beynəlxalq Kulinariya Festivalı" keçirilmişdir;
– 11 mayda Dendrologiya İnstitutunda Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində II Xarıbülbül rəsm və əl işlərindən ibarət ümumrespublika yaradıcılıq müsabiqəsi keçirilmişdir;
– 11 mayda Baş prokuror Kamran Əliyevin müşayiətilə Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizin mədəniyyət paytaxtına səfər etmişdirlər;
– 12-14 may tarixlərində Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirilmişdir;
– 12 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışında iştirak etmişdir;
– 13 mayda Azərbaycan Respublikasının Prezidenti "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 527-VIQD nömrəli Qanununu imzalamışdır;
– 17 mayda Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Şuşa musiqiçiləri" adlı sərginin açılışı keçirilmişdir;
– 18 mayda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak edən Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri Azərbaycanın mədəniyyət paytaxtına səfər etmişdirlər;

– 19-20 mayda Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans keçirilmişdir;
– 21 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır;
– 21 mayda ölkəmizin Fransadakı səfirliyinin və UNESCO üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində "Qarabağ" muğam klubunun konserti olmuşdur;
– 22 mayda Azərbaycanın Gürcüstandakı Səfirliyinin təşkilatçılığı və SOCAR-ın Gürcüstan Nümayəndəliyinin dəstəyi ilə ölkəmizə səfərə gələn Gürcüstanın din xadimlərindən ibarət nümayəndə heyəti Şuşa şəhərinə səfər etmişdirlər;
– 22 mayda Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin Şuşa şəhərində VII üçtərəfli iclası keçirilmişdir;
– 24 mayda Azərbaycanda rəsmi səfərdə olan Estoniya Parlamentinin (Riiqikoqun) sədri Yüri Ratasın başçılıq etdiyi parlament nümayəndə heyəti Şuşa şəhərinə səfər etmişdirlər;
– Mayda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Azəri Yurdu" Gənclər İctimai Birliyi tərəfindən icra olunan "İşğal nəticəsində dağıdılan mədəniyyət ocağının tanıdılması" layihəsi çərçivəsində Şuşa Dövlət Musiqili Dram Teatrının fəaliyyətindən bəhs edən "Ən uzun qastrol" adlı sənədli film hazırlanmışdır;
– 27 mayda Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın da tərkibində olduğu "TEKNOFEST Azərbaycan"ın Türkiyədən olan nümayəndə heyəti Şuşada erməni vandalizminin izləri, eləcə də aparılan tikinti-quruculuq işləri ilə tanış olublar;
– 4 iyunda Azərbaycan Respublikasının Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi, ADA Universiteti və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə "7-ci Beynəlxalq Sosial Elmlər Konqresi"nin Şuşa paneli keçirilmişdir;
– 6 iyunda "TRT" İstanbul Radiosu, Xəzər Folklor Təhsil və Araşdırma Mərkəzinin (Hazarfem dərnəyi) təşkilatçılığı, İstan-

bulun Bakırköy Bələdiyyəsinin dəstəyi ilə İstanbulda "Anadoludan Azərbaycana bir nəfəs – 2022 Şuşa İli" adlı təntənəli konsert təşkil edilmişdir;
– 7 iyunda Azərbaycan Milli Kitabxanasında Şuşa şəhərində XIX əsr tikmə nümunələri, onların təsnifatı, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapdığı "Şuşa əl işləri" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur;
– 11 iyunda Azərbaycan Milli Kitabxanasında Şuşa şəhərinin sənətkarlarının hazırladığı zərgərlik nümunələri, onların təsnifatı, haqqında məlumatlar, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapdığı "Şuşa zərgərlik məmulatları" adlı virtual sərgi açılmışdır;
– 11 iyunda Paraqvay parlamentinin Xarici əlaqələr komissiyasının sədri Valter Enrike Harms və Paraqvay Senatındakı Paraqvay-Azərbaycan Dostluq Qrupunun sədri Lukas Akino Xaradan ibarət nümayəndə heyəti Şuşa şəhərinə səfər etmişdirlər;
– 11 iyunda Slovakiya Milli Şurasının sədri Boris Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyəti Azərbaycanın mədəniyyət paytaxtına səfər etmişdirlər;
– 11 iyunda Milli Məclisin Aqrar siyasət və Regional məsələlər komitələrinin birgə iclası keçirilmişdir;
– 13 iyunda Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsinin "Şuşanın ədəbi həyatı" bölməsi üzrə növbəti təqdimat "Məclisi-Üns" ədəbi məclisə həsr olunmuşdur;
– 13 iyunda Beynəlxalq İnkişafa Yardım Agentliyi (AlDA) vasitəsilə Xarici İşlər Nazirliyi və ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramları tərəfindən birgə təşkil olunan "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı – 2022" adlı beynəlxalq kursun iştirakçısı olan 14 xarici diplomat Şuşa şəhərinə səfər etmişdir;
– 14 iyunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan – Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfransın iştirakçılarına təbrik məktubu ünvanlamışdır;
– 15 iyunda Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik müna-

sibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirilmişdir;
– 18 iyunda Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin dəstəyi və "IWS Azerbaijan" (Beynəlxalq Suluboya Cəmiyyətinin Azərbaycan nümayəndəliyi) və "IWS Khatai Art Center"in (Xətai Sənət Mərkəzinin nəzdindəki Akvarel qalereyası) təşkilatçılığı ilə Xətai Sənət Mərkəzinin qarşısında "Şuşa İli"nə həsr olunmuş akvarel performansı təşkil edilmişdir;
– 20 iyunda Malayziyanın Selanqor ştatının Petaling Jaya şəhərində Şuşanın 270 illiyinə dair Azərbaycanın Malayziyadakı Səfirliyinin təşəbbüsü və dəstəyi, həmçinin Petaling Jaya Şəhər Şurasının ev sahibliyi ilə Malayziyada foto-sərgi təşkil olunmuşdur;
– 22 iyunda mədəniyyət paytaxtımız və Bülbülün doğma yurdu Şuşa şəhərində Azərbaycan vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbülün anadan olmasının 125 illiyinə həsr olunan Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsinin yekun qala-konserti və laureatların mükafatlandırılması mərasimi keçirilmişdir;
– 24 iyunda "Şuşa söhbətləri" (Shusha talks) layihəsi çərçivəsində Beynəlxalq Muğam Mərkəzində layihə üzrə "Musiqinin Şuşaya qayıdışı" mövzusuna həsr olunmuş ikinci görüş təşkil olunmuşdur;
– 24 iyunda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) tərəfindən ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı əsasında elan olunmuş 2022-ci il "Şuşa İli"nə həsr olunan "Mədəniyyət: Problemlər və Perespektivlər" adlı doktorant və gənc tədqiqatçıların XV Beynəlxalq elmi Konfransı keçirilmişdir;
– 28 iyunda Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsinin yeni təqdimatı "Şuşanın memarlıq salnaməsi" bölməsindən Şuşa qalasına həsr olunmuşdur;
– 28 iyunda Azərbaycanın Almaniyadakı səfirliyi tərəfindən Berlində Azərbaycan Respublikasının Almaniyadakı səfirliyinin tabeliyindəki Mədəniyyət Mərkəzində "Şuşa İli" çərçivəsində muğam konserti və sərgi, habelə ziyafət təşkil olunmuşdur;
– 29 iyunda Parisdə Azərbaycan səfirliyinin mədəniyyət mərkəzində "Şuşa İli" çərçivəsində "Erməni separatistləri

tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” adlı sənədli film nümayiş edilmişdir;
– 29 iyunda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhəri əhalisinin XVIII-XIX əsrlərdə istifadə etdiyi məişət əşyaları, onların təsnifatı, haqqında məlumatlar, əyani-vizual görüntülər və qısa tarix öz əksini tapan “Şuşa məişət əşyaları” adlı virtual sərgi hazırlanmışdır;
– 29 iyunda İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Turizm Nazirləri Konfransının Azərbaycanda keçirilən XI sessiyası (27-29 iyun) iştirakçıları Şuşa səfəri etmişdirlər;
– İyuldan Mədəniyyət Nazirliyi “Şuşa İli”nə töhfə olaraq “Şuşa qalası” adlı yeni layihəyə start vermişdir. Layihə çərçivəsində Şuşanın hər məhəlləsindən bəhs edən videoçarxlar hazırlanacaqdır;
– 2 iyulda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin “Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan Bakı konfransının iştirakçıları işğaldan azad olunmuş Şuşa şəhərinə səfər etmişdirlər;
– 4 iyulda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Almaniyanın Qiesen Universitetinin dosenti, türkoloq alim Mixael Reynhard Hessin “Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu” adlı kitabının təqdimatı keçirilmişdir;
– 6 iyulda professor Elmira Süleymanova öz nəslinin ulularından qalmış, ona əziz olan 1930-cu illərdə Şuşada toxunmuş “Ləmpə” adlı xalçasını Milli Xalça Muzeyinin Şuşa filialına hədiyyə etmişdir;
– 7-15 iyul tarixlərində Xarici İşlər Nazirliyi (XİN) və ADA Universitetinin birgə təşkilatçılığı ilə “Postmünaqişə mərhələsində Azərbaycanın sülh və quruculuq səyləri” mövzusunda “Diplomatiya həftəsi” keçirilmişdir;
– 13 iyulda “Şuşa İli” çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizin Belçikadakı səfirliyi tərəfindən Brüsselin BOZAR İncəsənət Sarayında ölməz muğam ustadı Xan Şuşinskinin əziz xatirəsinə həsr edilmiş “Azərbaycan muğamı” adlı konsert təşkil olunmuşdur;
– 14-15 iyulda Şuşada Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə “Vaqif Poeziya Günləri” keçirilmişdir;

– 14 iyulda “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 527-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 iyul tarixli №1733 Fərmanının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamını imzalamışdır;

– M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi “Azərbaycanı dünyaya tanıdaq” layihəsi çərçivəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr olunan doktor Mixail Hessin “Şuşanın irsi” və Peter Tibor Veresin “Qafqaz Albaniyası: Əsrlərin dərinliklərindən gələn bir ölkədir” kitabları dünyanın bir çox ölkələrinin kitabxanalarına göndərilmişdir;

– Mədəniyyət Nazirliyi tərəfindən “Şuşa İli” münasibətilə həyata keçirilən “Şuşa mədəniyyətinin inciləri” layihəsindən “Şuşanın memarlıq salnaməsi” bölməsi üzrə növbəti təqdimat qalaşəhərimizin Saatlı məscidinə həsr olunmuşdur;

– İyul ayında “Şuşa İli” çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə yerli və əcnəbi rəssamlar üçün “ArtCamp Shusha” adlı beynəlxalq layihə həyata keçirilmişdir;

– 17-18 iyul tarixlərində Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ilə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi (MEDİA) 22 iyul Milli Mətbuat günü ərəfəsində biznes və iqtisadiyyat sahəsində ixtisaslaşan jurnalistlər üçün yay məktəbi formatında təlim keçirilmişdir;

– 22 iyulda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Şuşada Milli Mətbuat Günü münasibətilə “Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forumu keçirilmişdir;

– 29 iyulda Qoşulmama Hərəkatı (QH) Gənclər Sammitinin Şuşa sessiyası keçirilmişdir;

– 1 avqustdan Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa İli"nə həsr olunmuş xüsusi müsabiqəsinin qalibi olan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi "Şuşanın tarixi-mədəni irsinin tədqiqi və təbliği" layihəsinə başlamışdır;
– 1 avqustdan "Cəmiyyətin və Medianın İnkişafı" İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən "Şuşanı tanıyaq, tanıdaq!" layihəsinə start verilmişdir;
– 1-6 avqust tarixində Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Çövkən Milli Atüstü oyunu üzrə "Şuşa Kuboku" turniri keçirilmişdir;
– 2-8 avqustda Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində Azərbaycan mədəniyyətinin incisi olan Şuşada "Diaspor Gənclərinin III Yay Düşərgəsi" təşkil edilmişdir;
– 6 avqustda Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən VIII "Muğam" Televiziya Müsabiqəsinin finalı və qala-konserti Şuşa şəhərində keçirilmişdir;
– 29 avqustda Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" münasibətilə həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsindən "Şuşanın memarlıq salnaməsi" bölməsi üzrə növbəti təqdimat qala-şəhərimizin Mamayı məscidinə həsr olunmuşdur;
– 29-31 avqust tarixlərində Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin və "Böyük Qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində Qarabağın incisi, mədəniyyət beşiyimiz, azad Şuşada şəhid və qazi övladları üçün "Xarıbülbül" yay düşərgəsi keçirilmişdir;
Kitabda Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi; Mehriban Əliyeva: Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm; Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada səfərdədirlər. Şuşada 110/35/10 kilovoltluq yarımstansiya istifadəyə verilib; Şuşa (Müxtəsər tarix); Kürəkçay müqaviləsindən sonrakı Şuşa (1805-1918); Şuşa Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920); Şuşa sovet hakimiyyəti illərində (1920-1991); Azərbaycanda istiqlal uğrunda mübarizə və erməni işğalı (1988-1993); Müzəffər ordumuzun Şuşanı işğaldan azad etməsi; Şuşanın tarixi abidələri və bu kimi mövzular haqqında geniş məlumatlar verilmişdir.

***Kitabın içindəkilər:*** Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi; Rəsmi xronikanın fotoları. – ***Rəsmi xronika.*** – Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib; Mehriban Əliyeva: Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm; Birinci vitse-prezident Mehriban Əliyeva: Azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm!; Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub. Şuşa şəhərində səfərdə olub; Birinci vitse-prezident

Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb; Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar; Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müraciəti; Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Istagram" səhifəsində Prezident İlham Əliyevlə Qarabağa növbəti səfərdən görüntülər paylaşıb; Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyev Şuşada səfərdədirlər. Şuşada 110/35/10 kilovoltluq yarımstansiya istifadəyə verilib; Şuşada "Xarıbülbül" otelinin yenidənqurmadan sonra açılışı olub; Prezident İlham Əliyev "Xarıbülbül" otelinin nəznindəki korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olub; Prezident İlham Əliyev Şuşada yeni məscidin təməlini qoyub; Şuşada Xüsusi nümayəndəliyin inzibati binası ilə tanışlıq; Prezident İlham Əliyev Şuşada Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirib; Prezident İlham Əliyev Şuşada bərpa edilən "Xan qızı" bulağında olub; Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanışlıq; Prezident İlham Əliyev Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olub; Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub; Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər; Qarabağ səmasında, Şuşada atəşfəşanlıq; Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instaqram" səhifəsində Şuşada təşkil olunan atəşfəşanlığın görüntülərini paylaşıb; Prezident İlham Əliyev Şuşada Yuxarı Gövhər ağa məscidində olub; Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində "Xarıbülbül" musiqi festivalının qala-konsertindən görüntü paylaşıb; Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı qala-konsertlə başa çatıb; Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisi ilə tanışlıq; Zəfər yolu üzərində körpünün inşası ilə tanışlıq; Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlini qoyub; Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli rayonunda qarşılayıb; Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub; Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü; Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri də ziyarət olunub; Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb; Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər; Azərbaycan və Türkiyə prezidentləri Şuşada "Xan qızı" bulağında olublar; Şuşada Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub; Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub; Azərbaycan və Türkiyə prezidentləri Şuşada birgə nahar ediblər; Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib.

**195.Qarabağ Azərbaycandır!** / [Azərb. Resp. baş Prokurorluğu; hazırl. K. Əliyev; baş red. H. Məmmədov; red. hey. üzv.: E. Abbasov [və b.]. – Bakı: [Azərbaycan Respubli-kasının Baş Prokurorluğu], 2021. – 590, [1] s.

Kitabda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi; İşğal zamanı törədilmiş cinayətlərin araşdırılması; Ermənilərin törətdikləri soyqırımların fəsadları; Azərbaycanın qələbəsi; Prezident İlham Əliyevin müharibə zamanı xalqa müraciəti və həmin dövrdə verdiyi sərəncamları, çıxışları və s. məlumatlar verilmişdir.

**196.Qarabağın qara kitabı:** [fotoalbom] / [layihə rəhbəri, baş red. M. Mərcanlı; tərc. İ. Əsədov, E. Bağırov, Y. Pirt; şef red. A. Vasilyev; red.: Z. Əsgərova, Q. Lısenko; baş rəs. S. Dyakov; baş fotoqraf S. Kivrin; elmi məsl.: S. Əhmədov; məsl.: A. Kərimov, E. Hacıyev; dizayn M. Sokolova, Y. Çirikova; foto: F. Qasımlı (və b.). – Dubai: IRS Publishing House, 2021. – 221, [3] s. – *Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.*

Kitabda Dağlıq-Qarabağ münaqişəsinin gedişatı təsvir edilmiş, onun həqiqi səbəbləri, hərəkətverici qüvvələri və ən əsası, Qarabağın və ona bitişik Azərbaycan Respublikasının yeddi rayonunun Ermənistan tərəfindən işğalının qorxunc nəticələri barədə söz açılmışdır. Kitabda həmçinin erməni təcavüzkarlarının Şuşada törətdikləri cinayətlərə dair dəlillər də verilmişdir.

**197.Qarabaği, M. C. C.** Qarabağ tarixi / Mirzə Camal Cavanşir Qarabaği; tərc. ed. F. Babayev; red.: R. Əliyev, Ş.Tağıyeva. – Bakı: Qanun, 2021. – 95, [1] s.

Müqəddimə, 7 əsas fəsil, 13 qısa hissə və son sözdən ibarət olan bu əsərdə Qarabağın qədim zamanlardan başlayaraq, 1828-ci ilə qədər davam edən siyasi tarixindən bəhs edilir.

Kitabda Qarabağın xanlığının mərkəzi kimi Şuşadan da bəhs olunmuşdur.

***Kitabın içindəkilər:*** İnstitutdan; Mirzə Camal Cavanşir və onun "Qarabağnamə"si; Sərdar Voronsovun tapşırığı üzrə Mirzə Camal Qarabağinin Qarabağ vilayəti xanları mərhum Pənah xan və İbrahim xanın hakimiyyəti və istiqaməti və müxtəlif hadisələr haqqında yazdığı məlumat. – ***Birinci fəsil.*** Qarabağ vilayətinin əsl yaşayış yerləri, sərhədləri, qədim şəhər və çayları haqqında. – ***İkinci fəsil.*** Qarabağ vilayətinin təbəəliyi, köhnə adət və qaydaları haqqında. – ***Üçüncü fəsil***. Mərhum Pənah xanın əsil-nəsəbi və Qarabağ vilayətindəki hökmranlığı haqqında. – ***Dördüncü fəsil***. Mərhum Pənah xanın adına xanlıq fərmanı yazılması və onun hakimiyyəti haqqında. – ***Beşinci fəsil***. Mərhum İbrahim xanın hakimiyyəti və o zamanın qaydaları və hadisələri haqqında. – ***Altıncı fəsil***. (Bəzi) Hadisələr və Ağa Məhəmməd şahın ölümü haqqında. – ***Yeddinci fəsil***. Ağa Məhəmməd şah öldürüldükdən və İbrahim xan Balakəndən Qarabağa qayıtdıqdan sonra baş vermiş hadisələr haqqında. – ***Səkkizinci fəsil***. Bu vilayətlərin kəramətli əlahəzrət imperator bəndələrinin hökmü və mühafizəsi altına keçən gündən baş vermiş hadisələr haqqında. – ***Son***

***söz***; Qitə. – ***Fəsil***. Xanların hakimiyyəti haqqında. – ***Fəsil.*** Mərhum Pənah xanın Qarabağda tikdirdiyi bina və imarətlər; Mərhum İbrahim xandan qalmış bina və imarətlər. – ***Fəsil.*** İbrahim xanın nizam-intizamı və hakimiyyəti zamanında olan qaydalar haqqında. – ***Fəsil.*** Mərhum İbrahim xanın gəliri. – ***Fəsil.*** Mərhum xanın əxlaqı və rəftarı. – ***Fəsil.*** Xanın ilxısı. – ***Fəsil.*** Mərhum İbrahim xanın kargüzarları, qardaşları və qardaşoğlanları haqqında. – ***Fəsil.*** Evinin əmələ və kargüzarları və dövlət işilə məşğul olan şəxsləri. – ***Fəsil.*** Xanın adlı-sanlı övladı. – ***Fəsil.*** Mehdiqulu xanın varis və vəliəhd olmasının səbəbi.

**198.Qarabağlı, R.** Qarabağın memarlıq irsi / Rizvan Qarabağlı; elmi red. Ə.Ə. Salamzadə; rəyçilər: E.V.Avalov, T.H.Həcəfli; diz. R.Quliyev. – Bakı: Gənclik, 2021. – 351, [1] s.

Monoqrafiya Qarabağın tarix və mədəniyyət abidələrinə həsr edilib. Toplanmış materiallar, Sovet dövrü və müstəqillik illərində aparılan tədqiqat işidir. Əsərdə Qarabağ və ona qonşu olan ərazilərin memarlıq irsi, məktəbləri elmi təhlil olunur, haqqında məlumatlar verilir. Bununla yanaşı Qarabağ savaşı zamanı ermənilərin işğalçı ordusu tərəfindən dağıdılmış tarix və mədəniyyət abidələrinin vəziyyəti işıqlandırılır.

Kitabda eyni zamanda Şuşanın tarix və mədəniyyət abidələri haqqında da geniş bəhs olunmuşdur.

***Kitabın içindəkilərdən:*** Şuşa qalası; Yaşayış məqsədli binalar; Mehmandarovların mülki; Xan qızı Natəvanın evi; Üzeyir Hacıbəylinin evi; Zülfüqar Hacıbəyovun evi; Bülbülün evi; Hacı Qulunun mülkü; Zöhrab bəyin evi; Aşağı Gövhərağa məscidi; Yuxarı Gövhərağa məscidi; Çölqala məscidi; Mamayı məscidi; Culfalar məscidi; Hacı Yusifli məscidi; Şirinsu hamamı; Bulaqlar; [S. 70-79; 98-125; 156-171; 242-243; 259-260].

**199.Məmmədov, N.** Akademik Yaqub Mahmudov irsində Qarabağda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları tarixi / Nazim Məmmədov; red. və elmi məsl. G. Nəcəfli; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu. – Bakı: Avropa, 2021. – 479, [1] s.

Kitabda Akademik Yaqub Mahmudovun fundamental elmi əsərlərinə istinad olunaraq Qarabağda, Şuşada ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımların tarixi yığcam olaraq təhlil edilmişdir.

***Kitabın içindəkilər:*** Giriş**. – I Fəsil.** Akademik Yaqub Mahmudovun şərəfli həyatından sətirlər**. – II Fəsil.** Akademik Yaqub Mahmudov irsində ermənilərin Qarabağa köçürülməsi prosesi**. – III Fəsil.** Akademik Yaqub Mahmudovun elmi yaradıcılığında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar (1905-1906)**. – IV Fəsil.** Akademik Yaqub Mahmudovun elmi yaradıcılığında 1918-1920-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin tədqiqi**. – V Fəsil.** Akademik Yaqub Mahmudovun əsərlərində Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili və ağır nəticələrinin

təhlili (1920-1923). – **VI Fəsil.** XX yüzilliyin 40-cı illərində Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları: Deportasiya, soyqırımı və köçkünlük tariximiz Akademik Yaqub Mahmudovun elmi yaradıcılığında. – **VII Fəsil.** XX əsrin 50-60-cı illərdə erməni separatizminin növbəti mərhələsi Akademik Yaqub Mahmudovun elmi əsərlərində. – **VIII Fəsil.** Akademik Yaqub Mahmudovun elmi əsərlərində Qarabağda erməni separatizminin növbəti, viranedici mərhələsinin başlanması (1988). – **IX Fəsil.** Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinin yaradılması və onun mənfur siyasəti Akademik Yaqub Mahmudovun tədqiqatlarında (1989). – **X Fəsil.** Akademik Yaqub Mahmudovun elmi yaradıcılığında Qarabağda erməni terroru: sui-qəsd, girovgötürmə, vandalizm aktlarının təhlili (1990-1991). – **XI Fəsil.** Ermənistanın Azərbaycan Respublikasına qarşı elan edilməmiş müharibəsi və Qarabağın işğalı Akademik Yaqub Mahmudovun əsərlərində. – **XII Fəsil.** İşğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda Heydər Əliyevin mübarizəsi Akademik Yaqub Mahmudovun əsərlərində. – **XIII Fəsil.** Azərbaycanın işğal olunmuş ərazilərində erməni vandalizmi və ekoloji problem Akademik Yaqub Mahmudovun elmi yaradıcılığında.

**200.Müdrik siyasət və Qarabağ zəfəri** / Bakı şəhər İcra Hakimiyyəti; red. E. İmanov; dizayner və tərtibatçı T. Tağıyeva. – Bakı: Hədəf nəşrləri, 2021. – 224 s.

Kitab Vətən müharibəsində qazanılmış “Böyük Zəfər”in əldə edilməsində Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm cənab Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi, siyasi, diplomatik və hərbi fəaliyyətlərinin uğurlu nəticəsinə həsr olunub.

Kitabda Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə paytaxt rayonlarının orta məktəb şagirdləri arasında Azərbaycan torpaqlarının düşmən işğalından azad edilməsi uğrunda başlatdığı Vətən müharibəsinə həsr olunmuş “Müdrik siyasət və Qarabağ Zəfəri” mövzusunda referat yazı müsahibəsi iştirakçılarının məqalələri toplanmışdır.

***Kitabın içindəkilərdən: Ülvi Hüseynzadə.*** Şuşa Şəhəri – Azərbaycanın mədəniyyət paytaxtı. – ***Leyla Bayramova.*** Şuşa əməliyyat – Musiqi beşiyimizin azad olunması. – ***Fidan Valehli.*** Şuşa əməliyyatı – Musiqi beşiyimizin azad olunması. – ***Ayxan Hüseynov.*** Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması. – ***Aida Xubanova.*** Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması [S. 43-48; 59-63; 105-110; 139-144; 152-157].

**201.Nəbioğlu, M.** Borçalıdan Şuşaya gedən yol / Musa Nəbioğlu; red. M. Tükənli; [dizayner K. İbrahimov]. – K. 1. – Bakı: Elm və təhsil, 2021. – 306, [2] s.

Kitab İkinci Qarabağ müharibəsində, Şuşanın işğaldan azad edilməsində iştirak etmiş Borçalı kökənli Azərbaycan vətəndaşları olan şəhid və qazilərimizə həsr olunub.

**202.Niftiyev, Ə.** Qisas qiyamətə qalmadı: (Publisistik qeydlər və mülahizələr) / Ələşrəf Niftiyev; Red. Əyyar Tahirov; Tərtibatçı Müslüm Nuru oğlu. – Bakı: Elm və təhsil, 2021. – S.72.

Kitabda Azərbaycan-Ermənistan-Qarabağ münaqişəsi, ərazi bütövlüyümüzün qorunması və torpaqlarımızın işğaldan azad edilməsində ordumuzun igidlik və qəhrəmanlığından bəhs olunur.

**203.Sadıqov, B.** Xilaskar İlham Əliyev / Bəxtiyar Sadıqov; red. İ. Hüseynli; ön söz müəl. M. Qurbanlı. – Bakı: [Hədəf Nəşrləri], 2021. –317, [3] s.

Kitabda Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi şanlı qələbədən danışılır, onun tarixi-siyasi əhəmiyyəti şərh olunur. Dörd fəsildən ibarət olan kitabda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi-siyasi yolla həllinin təhlilinə xüsusi yer verilir, dövlət başçısının 2003-2020-ci illərdə apardığı ordu quruculuğu prosesinin mahiyyəti açılır, Azərbaycanı zəfərə çatdıran yolun siyasi, sosial-iqtisadi, diplomatik yönümləri araşdırılır, "Dəmir yumruq" əməliyyatının gedişi və nəticələri öz əksini tapır. Kitab həm də 44 günlük Vətən müharibəsinin, qəhrəman Azərbaycan Ordusunun Müzəffər Komandanı, Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin yığcam salnaməsidir.

**204. 8 Noyabr - Zəfər Günü**: [Elektron resurs]: metodik vəsait: Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait / Azərbaycan Respublikası, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. A. Məmmədova; ixtisas red. K.M. Tahirov; red. L. Əhmədova. – Bakı: [Azərbaycan Milli Kitabxanası], 2021. – 55 s.

Metodik vəsaitdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında qısa məlumat, "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" və "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamları, həmçinin, kitabxanalarda 8 Noyabr – Zəfər Günü ilə bağlı tədbirlərin keçirilməsi haqqında metodik tövsiyələr verilmişdir. Vəsaitdə həmçinin "10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti", işğaldan azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı və digər məlumatlar öz əksini tapmışdır.

**205.Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı**: biblioqrafiya: Şuşanın erməni işğalından azad edilməsinə həsr olunur / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed. X. Abbasova; elmi red. K. Tahirov; red. E. Nəciyev. – Bakı: [Zərdabi-Nəşr], 2021. – 598, [2] s.

**206.Şuşa - Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı** / tərt. E. Əhmədov; V bölmədəki rəsmi fotoların müəl. V. Əmrullayev; [dizayner M. Əliqızı]. – Bakı: [Zərdabi Nəşr MMC], 2021. – 179, [1] s.

Kitabda Azərbaycanın İkinci Qarabağ müharibəsində tarixi qələbəsini şərtləndirən amillər, xüsusilə hərbi-diplomatik və informasiya məkanında uğurlar geniş təhlil edilir. Xüsusilə, Şuşa şəhərinin işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərməklə, Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir. Bundan əlavə, Azərbaycanın tarixi mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşanın qədim tarixi, mədəni və strateji əhəmiyyəti tədqiq edilir. Kitabda Qarabağ xanlığının paytaxtı – Şuşa qalasının və şəhərin qədim məhəllələrinin salınması açıqlanır. Xüsusilə, Şuşa Azərbaycanın çoxəsrlik, zəngin şəhərsalma mədəniyyətinin nadir nümunəsi kimi göstərilir. Kitabda ümummilli lider Heydər Əliyevin ermənilərin əsassız ərazi iddialarına qarşı mübarizəsi və Şuşaya zəngin tarixi abidə kimi qayğısı açıqlanır. Bununla yanaşı, XX əsrin sonunda Ermənistanın Azərbaycana hərbi təcavüzü, Şuşanın işğalı və şəhərdə mədəni soyqırımı siyasəti, xüsusilə tarixi-memarlıq abidələrinin erməni vandalizminə məruz qalması təsdiq olunur və bu fotolarla diqqətə çatdırılır. Həmçinin, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında xidmətləri olan Şuşanın görkəmli şəxsiyyətlərinin fotoları da kitabda öz əksini tapmışdır. Bununla yanaşı, 2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən Şuşanın işğalçılardan azad edilməsi, eləcə də 2021-ci ildə şəhərin əsl tarixi siması, ənənələri və qədim mədəni abidələrinin bərpası istiqamətində aparılan işlər geniş tədqiq edilir. Eyni zamanda, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyəti açıqlanır. Kitabda bütün bu mühüm hadisələr də rəsmi fotolarda öz əksini tapmışdır.

***Kitabın içindəkilər:*** Giriş. – **I Bölmə.** Azərbaycanın İkinci Qarabağ Müharibəsində tarixi qələbəsini şərtləndirən amillər: hərbi-diplomatik və informasiya məkanında uğurlar. – **II Bölmə.** Şuşa – Azərbaycanın tarixi mədəniyyət paytaxtı, Qarabağın tacı və hərbi-strateji əhəmiyyətə malik qədim şəhər. – **III Bölmə**. Şuşa işğaldan əvvəl. – **IV Bölmə.** Şuşa Ermənistan silahlı qüvvələrinin işğalından sonra. – **V Bölmə.** Şuşa işğaldan azar ediləndən sonra.

**207.Vətən müharibəsi yerli və xarici mediada**: [toplu] / Azərb. Resp. Təhsil Nazirliyi, BDU; layihənin ideya müəl. və rəhb. E. Babayev. – Bakı: BDU, 2021. – 84, [2] s.

Kitabda İkinci Qarabağ müharibəsi dövründə ölkə KİV-nin fəaliyyəti, xarici media orqanlarında, eləcə də Ermənistan mətbuatında dərc olunan məqalələr, müsahibələr, reportajlar, analitik yazılar və s. araşdırılmışdır. Beynəlxalq medianın müharibəyə baxışına nəzər salınmış, geniş işıqlandırılmış, fərqli yanaşmalar sistemləşdirilmiş, ümumiləşdirmələr aparılaraq təqdim olunmuşdur.

Kitabda ikinci Qarabağ savaşı dövründə və sonrakı dövrdə azərbaycan və dünya mediasında Şuşa haqqında materiallar da toplanmışdır.

**208.Zəfər memuarları. Döyüşçülər sərkərdə və müharibə haqqında**: [toplu] / [Bakı Şəhər İcra Hakimiyyəti; baş red. N. Cabbarlı; red. A. Quliyeva; buraxıl. məsul R. Kazımov; dizayner A. Abdulzadə]. – [Bakı]: Şərq-Qərb, [2021]. – 323, [1] s.

Kitab Vətən müharibəsinin iştirakçısı olan 27 döyüşçünün – 30 ildən çox işğal altında qalan doğma Qarabağımızı mənfur düşməndən azad edib xalqımıza Qələbə sevinci yaşadan qəhrəman oğulların Sərkərdə, Savaş və Zəfər barədə söylədikləri memuarlar əsasında hazırlanmış topludur.

***Kitabın içindəkilərdən: Aslanov Rəşad Əmir oğlu.*** Şuşada Bayrağımızı ucaltmaq arzumu "Dəmir yumruq" gerçəkləşdirdi; Şuşa əməliyyatı qeyri-adi hərbi planla gerçəkləşdi. – ***Qasımov Fuad Kamal oğlu.*** Şuşada küçə döyüşləri gedirdi. – ***Məmmədov Rəşad Arif oğlu.*** Tarixlərə yazılan Şuşa əməliyyatı; Ali Baş Komandanın Şuşa zəfəri. – ***Məsimov Tehran Cavid oğlu.*** Şuşaya doğru; İlham Əliyevin yaratdığı şanlı tarix. – ***Rəhimov Zaur Şirinbəy oğlu.*** Hədəf Şuşa idi [S. 33; 39-41; 173-174; 215-219; 237-245; 264-267].

**209.Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək /** layihənin rəhb. və ön söz. müəl. R. Mehdiyev; nəşrə hazırl.: İ. Həbibbəyli, K. Şükürov; [nəşrə məsul R. Didavari]. – [Bakı]: [Elm], [2021]. – 903, [1] s.

Kitabda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi – İkinci Qarabağ müharibəsi və post-müharibə dövründə xalqa müraciətləri, müsahibələri, tarixi qələbə münasibətilə paradda nitqi, ölkə rəhbərinə ünvanlanmış teleqramlar, Prezidentə müraciətlər, fərman və sərəncamlar, yerli və xarici media nümayəndələri üçün mətbuat konfransının materialları, Şuşa Bəyannaməsi və bu münasibətlə Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları toplanmışdır. Topluya ümumən 237 sənəd daxil edilib.

***Kitabın içindəkilərdən:*** Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. *10 noyabr 2020-ci il*; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. *1 dekabr 2020-ci il*; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev CNN-Türk televiziyasına müsahibə verib. *7 oktyabr 2020*; Azərbaycan Prezidenti İlham Əliyevin "SKY NEWS" televiziya kanalında müsahibəsi yayımlanıb. *9 oktyabr 2020-ci il;* Azərbaycan Prezidenti İlham Əliyev "A Haber" televiziya kanalına müsahibə verib. *16 oktyabr 2020-ci il;* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. *16 noyabr 2020-ci il*; Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun

layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı; "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında əsasnamə. *1 dekabr 2020-ci il*; Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiq münasibətlər haqqında Şuşa bəyannaməsi. *15 iyun 2021-ci il*; Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları. *15 iyun 2021-ci il* [S. 57-75; 97-114; 200-211; 225-232; 290-316; 520-529; 544-545; 568; 859-874].

**2022**

**210.Əliyev, İlham.** İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İlham Əliyev; buraxıl. məsul Ramiz Mehdiyev. – K. 115: Oktyabr 2021 – Noyabr 2021. – Bakı: Azərnəşr, 2022. – 391, [1]s.

***Kitabın içindəkilərdən:*** Şuşa şəhərinə səfər. *7 noyabr 2021-ci il*; Daşaltı məscidinin təməlqoyma mərasimi; Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimi; Şuşa Rayon mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi; Aşağı Gövhər ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanışlıq; Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanışlıq; Cıdır düzündə ağacəkmə aksiyasında işlər; Zəfər Günü münasibətilə Şuşada hərbiçilərlə görüş. *8 noyabr 2021-ci il*; Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı [S.272-295].

***

**211.Əlamətdar və tarixi günlər təqvimi** / Azərb. Milli Kitabxanası; [hazırlayan.: Y. Məmmədova [və b.]]; baş red. K. Tahirov; red. E. Nəciyev; məsul katib C. Həşim. – Təqvim 2022. – Bakı: [Zərdabi Nəşr], 2022. – 886, [2] s.

Təqvimdə Şuşa şəhərinin tarixinə, mədəniyyətinə, görkəmli şəxsiyyətlərinə, işğaldan sonra şəhərin bərpası, dirçəldilməsi, tarixi simasının və əvvəlki şöhrətinin qaytarılması üçün aparılan yenidənqurma işlərinə dair zəngin məlumatlar öz əksini tapmışdır.

**212.Heb, M. R.** Qarabağ: XIII əsrdən 1920-ci ilədək: Azərbaycan tarixini vərəqləyərkən / Mikael Reynhard Heb; ing. dilindən tərc. ed. Q. Bayramov; [red. M. Şahbazov; qapaq dizaynı R. Qasım]. – [Bakı]: [Qanun], [2022]. – 118 s.

Kitabda Qarabağın Azərbaycanın tarixi və mədəniyyətində yeri öz əksini tapmışdır. "Qarabağ" adının etimoloji mənası haqqında məlumat verilmiş, XIII əsrdən başlayaraq XX əsrin əvvəllərinədək burada baş verən hadisələrə işıq salınmışdır.

***Kitabın içindəkilərdən:*** Qarabağ xanlığı (1747/1748-1822-ci illər); Qarabağın Rusiyanın nəzarəti altına keçməsi (1822-1868-ci illər); Keçmişə qayıdış yox (1905-1906-cı illər); Qarabağ münaqişəsinin birinci qızğın dövrü

(1918-1920-ci illər); Xülasə: Qarabağın Azərbaycanın tarixi və mədəniyyətində yeri; Xanlığın səlahiyyətlərinin Rusiyaya keçməsi haqqında Qarabağ xanlığı və Rusiya imperiyası ilə 14 may 1805-ci ildə imzalanmış Kürəkçay Müqaviləsi [S. 59-77; 85-88; 91-108].

**213.Hüseynov, Y.** Qarabağnamə / Yunis Hüseynov; red və rəy. Z. H. Bayramlı; rəyçilər: X. S. Qasımov, B. O. Əziz. – Bakı: Füyuzat, 2022. – 119, [1] s.

Əsərdə Qarabağın tarixi, Qarabağ xanlığının yaranması, xanlığın inzibati mərkəzi Şuşa şəhərinin salınma tarixindən, inkişafından, qədim yaşayış yerlərindən, Qarabağ xanlığının Rusiya və başqa qonşu dövlətlərlə münasibətlərindən bəhs olunur.

***Kitabın içindəkilər: Zabil Bayramlı.*** Ön söz. – ***I Fəsil.*** Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsərinə Qarabağın yaşayış yerləri, sərhədləri, qədim şəhər və çayları haqqında məlumat. – ***II Fəsil.*** Pənahəli xanın əsl-nəcabəti və Qarabağ vilayətindəki hökmranlığı haqqında. – ***III Fəsil.*** İbrahimxəlil xanın Qarabağda hakimiyyəti və o zamanın qaydaları və hadisələri haqqında. – ***IV Fəsil.*** Qarabağ xanlığı Mehdiqulu xanın hakimiyyəti dövründə (1807-1822-cillərdə). – ***V Fəsil.*** Pənahəli xanın Qarabağda tikdirdiyi bina və imarətlər. – ***VI Fəsil.*** Azərbaycanın Qarabağ bölgəsi xanlığının təbii-coğrafi şəraiti. – ***VII Fəsil.*** Azərbaycanın Qarabağ xanlığı bölgəsinin kənd təsərrüfatı. – ***VIII Fəsil.*** Qarabağ xanlığının kustar sənətkarlıq sənayesi. – ***IX Fəsil.*** Azərbaycan Qarabağ xanlığının ticarət həyatı. – ***X Fəsil.*** Qarabağ xanlığının siyasi quruluşu. – ***XI Fəsil.*** Azərbaycanın Qarabağ xanlığı bölgəsində vergi və mükəlləfiyyətlər. – ***XII Fəsil.*** XVI-XVII. Yüzyıllarda Karabağın etno-poetik durumu. – ***XIII Fəsil.*** Zəngəzur Qədim Azərbaycan torpağıdır. – ***XIV Fəsil.*** Qarabağ xanlığının Osmanlı Türkiyəsi ilə münasibətləri. – ***XV Fəsil.*** Türkmənçay sülh müqaviləsi və onun nəticələri hay ünsürlərinin Qarabağa köçürülməsi. – ***XVI Fəsil***. Xudafərin körpüləri. – ***XVII Fəsil.*** Hay ünsürlərinin Qarabağa köçürülməsi.

**214.İsaxanlı, H.** Mənim Qarabağım və ya Qarabağ düyünü / Hamlet İsaxanlı. – Bakı: Xəzər Universiteti nəşriyyatı, 2022. – 241, [2] s.

Kitab Azərbaycan və erməni xalqları, Azərbaycan və Ermənistan arasında münasibətlər tarixi, xüsusilə son dövrdə baş verənlər, müəllifin öz müşahidələri, başına gələnlər, Azərbaycan və erməni xalqlarının həyatı və qayğıları barədə Azərbaycan və erməni ədəbiyyatı və mətbuatında yazılanlar, indiki vəziyyətdə nə etməli, gələcəyimiz necə ola bilər suallarına cavab axtarışı kimi məsələlərə həsr olunub. Kitabda mədəniyyət paytaxtımız Şuşadan da geniş bəhs olunmuşdur.

**215.İsmayılov, İ.** Bizim Qala / İsmayıl İsmayılov; red. Kərim Kərimli. – Bakı: Zərdabi Nəşr. – 2022. – 206, [2] s.

Kitabda Şuşa şəhərinin özünəməxsus zəngin memarlığını əks etdirən

olduqca maraqlı və bir çox oxucular üçün yeni olan məlumatlar əksini tapıb. Burada Şuşa şəhərinin 8 may 1992-ci ildə işğala məruz qalması və 44 günlük Vətən müharibəsi nəticəsində 8 noyabr 2020-ci ildə müzəffər ordumuzun şücaəti sayəsində azad edilməsinə də toxunulub. İşğaldan azad ediləndən sonra şəhərdə və digər azad edilmiş ərazilərdə aparılan geniş miqyaslı bərpa, təmir və quruculuq işlərindən, Şuşada artıq ənənəyə çevrilmiş mədəni tədbirlərin keçirilməsindən də qısa şəkildə məlumat verilir. Kitabda məhz Şuşanın Azərbaycana, Azərbaycan xalqına məxsusluğunun maddi sübutu olduğuna görə mənfur düşmən tərəfindən dağıdılmış yüzlərlə memarlıq abidəsinin işğala qədər və azad ediləndən sonra eyni rakursdan çəkilmiş şəkillərinin geniş şəkildə verilməsi və müqayisəli təqdim edilməsi erməni vandalizminin dəhşətli miqyasını əyani surətdə göstərir.

**216.Quliyev, V.** Qarabağın üç şaireyi-möhtərəməsi / Vilayət Quliyev; red. İ. Musalı; [üz qabığının tərtibatı R. Aslanlı]. – Bakı: [Azərbaycan Dövlət Tərcümə Mərkəzi], 2022. – 103, [1] s.

Kitabda Qarabağ-Şuşa mühitindən böyük ədəbiyyata pərvazlanan ünlü qadın sənətkarlarımızın ömür yolu, keşməkeşli taleyi, mühiti və şəxsiyyəti izlənilir, yaradıcılıq irsi nəzərdən keçirilir.

***Kitabın içindəkilər:*** "Şuşa ili"nə töhfəmiz; Qarabağ pərisi – Aşıq Pəri; Xan qızı Xurşidbanu Natəvan: Bitməyən bir həyat dramı; "Dönübdür qanə könlüm Şişə içrə..." – Fatma xanım Kəminə.

**217.Memorial. Vətən müharibəsi şəhidləri**: 957 qəhrəmanın bioqrafiyası / Koordinator Ülkər Hüseynova; Layihə üzərində işləyənlər: Famil Cəfərli, Kərim Kərimli, Vüsalə Babayeva, Arzu Cəfərova, Arzu Mehdiyeva, Xan Abdulla; Layihənin bədii rəhbəri: Sevinc Ələkbərova; Dizaynerlər: Mahir Allahverdiyev, Vüqar Nağıyev. – C.1. (A-G). – Bakı: TEAS Press, 2022. – 658 s.

Müqəddəs şəhidlərimizin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının, hər bir azərbaycanlının qəlbində yaşayacaq!. Onların ruhunu sonsuz ehtiramla anır, hər birinə Uca Tanrıdan rəhmət diləyirik.

Kitab Vətən müharibəsində bizə qələbə sevincini yaşadan şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Kitabda Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib, rəşadət göstərmiş şəhidlərimizdən də bəhs olunmuşdur.

**218.Məmmədov, N.** İkinci Qarabağ müharibəsi: Zəfər salnaməsi / Nazim Məmmədov; elmi red. M. İ. Əmrahov; rəy.: Ə. Q. Qasımov, Ə. X. Mustafayev. – Bakı: Optimist, 2022. – 463, [1] s.

Kitabda, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun – xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə 44 gün davam edən II Qarabağ müharibəsində qazanılan qələbədən bəhs olunmaqla Qarabağın işğaldan azad edilməsinin ölkə, region və

dünya üçün əhəmiyyəti, igid oğullarımızın keçdiyi şanlı döyüş yolu izlənmiş, 10 noyabr və Şuşa Bəyannamələrinin, "Xarı Bülbül" festivalının təsnifatı təhlil edilmiş, müharibədən sonrakı dövrdə Qarabağda aparılan tikinti-quruculuq işləri işıqlandırılmışdır.

***Kitabın içindəkilərdən: XI Fəsil.*** Azad edilmiş möhtəşəm Şuşa və viran edilmiş Qürurlu şəhər; ***XVIII Fəsil.*** "Şuşa Bəyannaməsi"nin tarixi əhəmiyyəti; ***XIX Fəsil.*** Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən "Xarıbülbül" festivalının əhəmiyyəti; ***XX Fəsil.*** Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi ulu öndər Heydər Əliyev ideyalarının təntənəsidir [S. 154-168, 261-300].

**219.Məmmədov, S.** Qarabağ: mif və həqiqət: Dərs vəsaiti / Sadir Məmmədov, T. Məmmədov; layihənin rəhb. A. Nağıyev; elmi məsl. N. Məmmədov Tağısoy; red.: Y. Alxasov, İ. Quliyev; [dizayn T. Mehdiyev]; Azərb. Resp. Təhsil Nazirliyi; Bakı Slavyan Un-ti. – Bakı: Təhsil, 2022. – 479, [1] s.

Kitabda Azərbaycanın əzəli-əbədi ərazisi, Qarabağın tarixi-coğrafi mövqeyi, Qarabağ ərazisində yaşamış tayfalar, onların mədəni-ədəbi abidələri, ermənilərin Qarabağda, eləcə də tarixi Azərbaycan torpağı olan Zəngəzurda məskunlaşması, onların türk torpaqlarında dövlət qurmaq cəhdləri, erməni uydurmalarının ifşası, qədim erməni dili ilə bağlı həqiqəti əks etdirməyən iddiaları, Qarabağda erməni cinayətləri, Qarabağ probleminin həllini əyaniləşdirən Azərbaycan dövlətinin siyasi mövqeyi və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsində qazandığı Şanlı Zəfərimiz şərh edilir.

Kitabda Şuşanın tarixi-coğrafi mövqeyindən, ermənilərin Şuşada məskunlaşmasından, erməni cinayətlərindən, Şuşanın işğalından və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı altında rəşadətli Azərbaycan Ordusunun Şuşanı işğaldan azad etməsindən də bəhs edilmişdir.

***Kitabın içindəkilər:*** Giriş; Qarabağ: ən qədim dövrlərdən günümüzdək; Qarabağın tarixi-coğrafi mövqeyi; Ermənilərin Qarabağda məskunlaşması; Ermənilərin türk torpaqlarında dövlət qurmaq səyləri; Rusiyanın dövlət maraqları və ermənilər; Erməni komitələri; Erməni üsyanlarına doğru; Musa bəy hadisəsi; Ərzurum hadisəsi; Qumqapı mitinqi; Erməni silahlı dəstələrinin Türkiyəyə hücumu; Rusiyanın Qafqaz ermənilərinə təsiri; Merzifon və Yozqat hadisələri; Sasun üsyanı; Babıali mitinqi və Anadoluda erməni hərəkatları; Zeytun üsyanı; Van üsyanı və İngiltərənin erməni siyasətinə təsiri; Osmanlı bankına basqın; Muş hadisələri və II Sasun üsyanı; II Əbdülhəmidə qarşı terror cəhdi; Ərzurum və Bitlis üsyanları; Adana hadisələri; Ermənilərin uydurma qırğın iddiaları; Erməni uydurmaları. Qədim erməni dili haqqında qeyri-real

iddialar; Ermənilərin bəd əməlləri və məkrli niyyətləri tarixi mənbələrdə; Ermənistan-Azərbaycan münaqişəsi müasir mərhələdə. Erməni düşmənçiliyi: dünən və bu gün; Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi; Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı; Ermənistan-Azərbaycan qarşıdurmasının tarixi; Qarabağ münaqişəsinin siyasi həll yolları; Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində törədilmiş cinayətlər; Cənubi Qarabağda Azərbaycanın geosiyasi mövqeyi; Avropa Birliyi və Azərbaycanda hüquqi dövlət quruculuğu; "Biz öz tarixi torpaqlarımıza qayıdacağıq"; Dağlıq Qarabağ probleminin həlli istiqamətində; Ulu öndər Heydər Əliyevin fəaliyyəti; Qarabağ atları; Qarabağ ədəbiyyatı; Azərbaycan konservatoriyası və təsviri sənət beşiyi; Çaylar, bulaqlar və yaylaqlar; Qarabağın məşhur tayfaları; Azıx mağarası; Tarixi Azərbaycan torpağı Zəngəzur; Erməni cinayətləri və azərbaycanlıların deportasiyası; Qanlı cinayətlərin canlı şahidi; Tarixin qara səhifələri; Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri; Qarabağda erməni cinayətlərinin ümumi statistikası; Azərbaycan Respublikası müstəqillik dövründə; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Valday" klubunda çıxışından; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB dövlət başçıl-arının Aşqabadda keçirilən iclasında çıxışında; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Din Liderlərin II Sammitində çıxışından; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetində çıxışından; Prezident İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışı; Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradındakı çıxışı (10 dekabr 2021-ci il); Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Milli Məclisdəki Çıxışı (16 iyun 2021-ci il); Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbiçilər qarşısında çıxışı (8 noyabr 2021-ci il); Həqiqətin təntənəsi; Azərbaycanın Qarabağ bölgəsində işğal olunmuş və 44 günlük müharibə nəticəsində azad olunmuş əraziləri haqqında məlumat. – **Nəticə.** – **Əlavələr:** ***Əlavə 1:*** Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin Bəyanatı (10 noyabr 2020-ci il). – ***Əlavə 2:*** Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin Bəyanatı (11 yanvar 2021-ci il). – ***Əlavə 3:*** Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi (15 iyun 2021-ci il). – ***Əlavə 4:*** Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 iyul 2021-cil). – ***Əlavə 5:*** Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa

müraciəti (27 sentyabr). – ***Əlavə 6:*** Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatları (26 oktyabr 2021-ci il). – ***Əlavə 7:*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bəyanatı (Soçi, 26 noyabr 2021-ci il). – ***Əlavə 8:*** 2021-ci il dekabrın 14-də Brüsseldə Avropa İttifaqı Şurası Prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli formatda görüş keçirilib. – ***Əlavə 9:*** Azərbaycan tarixi xəritələri

**220. Muradova, Z**. Şuşa, hər daşı-qayası tarix / Zəhra Muradova; red.: İntiqam Cəbrayılov, Vəli İlyasov; tex. red. Rəhilə Misirxanova; məs. Vasif Quliyev; rəy.: Piralı Əliyev, Mahirə İbadova. – Bakı: Orxan NPM, 2022. – 415, [1] s.

Kitab Şuşa şəhər-qalasının tikilməsindən, Şuşa şəhərindən və orada yetişən görkəmli elm, sənət və dövlət adamlarından, ictimai xadimlərdən bəhs edir.

***Kitabın içindəklər*:** ***Şərqin gözəli:*** Əziz Şuşa, sən azadsan!; Mədəniyyətimizin beşiyi Şuşanın yaranma tarixi; Şuşa sənətkarlar şəhəridir; Şuşanın mədəniyyət abidələri; Şuşa- Azərbaycan musiqisinin məbədi; Şuşanın dövlət və ictimai xadimləri. – ***Şuşanın görkəmli şəxsiyyətləri:*** Pənah xan Cavanşir; Molla Pənah Vaqif; İbrahimxəlil xan Cavanşir; Mehdiqulu xan Cavanşir; Mirzə Adıgözəl bəy; Ağabəyim ağa; Qasım bəy Zakir; Cəfərqulu xan Cavanşir (Nəva); Abbas Mirzə; Fərhad bəy; Məşədi Ocaqverdi (Ocaqverdiuşağı); Gövhər ağa Cavanşir; Bəhmən Mirzə Qacar; Mirzə Məmmədqulu bəy Qayıbov; Xarrat Qulu; Əsəd bəy Cavanşir; Xurşidbanu Natəvan; Seyid Hüseyn Ağamirov; Mir Möhsün Nəvvab; Hacı Hüsü; Abdulla bəy Asi; Fatma xanım Kəminə; Hacı Abbas Agah; Mirzə Rəhim Fəna; Sadıqcan; Həsənəli xan Qarabaği; Cəmil bəy Xazalanski; Əmir Kazım Mirzə Qacar; Nəcəf bəy Vəzirov; Məşədi İsi; Səməd bəy Mehmandarov; Mehdiquluxan Vəfa; Əli bəy Novruzov; Cabbar Qaryağdıoğlu; Bəhram bəy Axundov; Əmənulla Nirzə Qacar; Firidun bəy Köçərli; Keçəçioğlu Məhəmməd; Haşım bəy Vəzirov; Əhməd bəy Ağaoğlu; Malıbəyli Həmid; Darab Mirzə Qacar; Əbdürrəhim bəy Haqverdiyev; Çarıqçı Bahadır; Əbülfət Vəli; Əmir bəy Nərimanbəyov; Həmidə xanım Cavanşir; Məcid bəy Mahmudbəyov; Məşədi Cəmil; Ərdəşir Mirzə; Bədəl bəy Bədəlbəyli; Süleyman Sani Axundov; İldırım xan Şərifov; Əliş bəy Vəliyev; Əliş bəy Gülməmmədov; Məşədi Abbas Rzayev; Cavad bəy Məlik-Yeqanov; Qəmər bəyim Şeyda; Ələsgər bəy Bəylərbəyov; Zülfüqar Hacıbəyov; Üzeyir Hacıbəyli; Həsən bəy Fətəlibəyov; Hidayət bəy Tarverdiyev; Cəmil bəy Vəzirov; Cəlil Məmmədquluzadə; Mirhəsən Vəzirov; Seyid Şuşinski; Həbib bəy Köçərli; Bəhram Mirzəyev; Cahangir bəy Nəsirbəyov; Əmir bəy Aslanov; Həsən İxfa Əlizadə; Əli Zülalov; Bahadır Vəlibəyov; Hüseyn bəy Mamayev; Cəlil Xudiyev; Nəzirə Qacar; Mirzə Ələsgər Növrəs; Hüsü Hacıyev; Cəmil bəy Musayev; Baba bəy Behbud; Bülbül; Əmir Hacıyev; Əyyub bəy Köçərli; Əli

Yusifzadə; Yaqub Quliyev; Xan Şuşinski; Hüseyn Baykara; Məhbubə Paşayeva; Mehdi Usmiyev; Bəylər Ağayev; Lətif Kərimov; Əliş Həsənov; Hətəm Quliyev; İsfəndiyar Vəlixanlı; Məhərrəm Əlizadə; Məmmədəli Məhərrəmov; Əmir Rüstəmov; Ələsgər Rizvan; Süleyman Vəzirov; Səttar Əsədov; Sürəyya Qacar; Ənvər Tutayuq; Əsəd bəy Rüstəmbəyov; Ənvər Həsənov; Şamil Əliyev; Ənvər Behbudov; Niyazi Hacıbəyov; Tahirə Tahirova; Çingiz Hacıbəyov; Bəbir Məmmədzadə; Barat Şəkinskaya; Validə Tutayuq; Cavanşir Məmmədov; Əkbər Ağayev; Rəşid Behbudov; Cəlal Qarayağdı; Xəlil Məmmədov; Azad Şəmsiyev; Alim Yusifzadə; Məhluqə Sadıqova; Mehdi Məmmədov; Əli Fərzəliyev; Soltan Hacıbəyov; Əşrəf Abbasov; Adil Babayev; Saleh bəy Qarabağlı; Naib Şirinov; Fikrət Əmirov; Lətif İmanov; Nazim Axundov; Teymur Əliyev; Süleyman Ələsgərov; Firudin Şuşinski; Rasim Hacıyev; Əbülfət Əliyev; Firuzə Məmmədova; Tamilla Ağamirova; Cahid Quliyev; Cahid Camal; Nəriman Tahirov; Vahid Hacıyev; Aydın Qaradağlı; Cəlal Allahverdiyev; Çingiz Sadıqov; Toğrul Nərimanbəyov; Sabir Şəfiyev; Qaçay Hüseynov; Aida Tağızadə; Eldar Əzimzadə; Qədir Rüstəmov; Nailə Mehdibəyova; Rafiq Hüseynov; Niyazi Rəsulov; Nadir Əlişov. – ***Klassik şuşalıların müasirləri:*** Məryəm Əlizadə; Kamal Abdulla; Bayram Səfərov; Vasif Quliyev; Şamil Süleymanlı; Vüsalə Fətəliyeva; Səadət Qarabağlı; Şəlalə Həsənova; Firəngiz Mütəllimova; Gülşən Lətif; Ramiz Qəmbərov; Aygün Məcidova; Azad Məmmədov; Elmir Vəlizadə; Hikmət Sabiroğlu; Nəriman Bağırov; Dilquşa Mirzəyeva; Anar Kərimov; Elşad Məmmədov; Murad Adıgözəlzadə; Naina İbrahimova; Tahir İmanov; Cabir İmanov; Şahin Növrəsli; Adil Bağırov; Nəsimi Əhmədov; Nurlan Növrəsli; Arslan Növrəsli; Tərlan Növrəsli. – Şuşa Qarabağdır, Qarabağ Azərbaycandır!. – Шуша – это Карабах, Карабах это Азербайджан. – Shusha is Karabakh, Karabakh is Azerbaijan.

**221.Şuşa ili-Zəfər salnaməsi** / AMEA elmi-kitabxanaları üçün metodik vəsait. – Bakı: Elm, 2022. – 90, [2] s.

**222.Zəfərimizin təntənəsi – 2022-ci il Şuşa ilidir:** [Elektron resurs]: metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. L. Əhmədova; elmi red. K. Tahirov; red. A. Məmmədova. – Bakı: [n. y.], 2022. – 42 s.

Metodik vəsaitdə "Şuşa ili"nin elan edilməsi və Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamları, Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti öz əksini tapmışdır. Bundan əlavə vəsaitdə Şuşanın tarixi haqqında məlumat və "Şuşa ili" ilə bağlı kitabxanalarda həyata keçiriləcək tədbirlərdən bəhs olunmuşdur.

## 2.2. ŞUŞANIN TARİXİ ƏDƏBİYYATŞÜNASLIQDA, BƏDİİ ƏDƏBİYYATDA VƏ İNCƏSƏNƏTDƏ

**1968**

**223.Çəmənzəminli, Y. V.** Qan içində: roman / Yusif Vəzir Çəmənzəminli; əlyazması əsasında işləyib çapa haz. və red. Ə. Ağayev. – Bakı: Azərnəşr, 1968. – 242, [2] s.

Romanda Qarabağın XVIII əsrin ikinci yarısında siyasi-ictimai vəziyyəti, xanlığın İran işğalçılarına qarşı mübarizəsi, Ağaməhəmməd şah Qacarın Qarabağa hücumu və Şuşa şəhərinin müdafiəsinin daha aydın təsviri verilmişdir.

**1991**

**224. Ordubadi, M.** Qanlı illər: 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi / Məmməd Səid Ordubadi; əsəri ərəb əlifbasından çevirən və çapa haz. Ə. Bağırov; rəyçi. M. İsmayılov, Ş. Cəmşidov; Qarabağa Xalq yardımı Komitəsi. – Bakı: Maarif, 1991. – 144 s.

Müəllif bu əsəri yazarkən özünün müşahidələri ilə yanaşı özü qədər etibar etdiyi müxbirlərin göndərdiyi məktub və sənədlərdən, dövrü mətbuatdan, rəsmi protokol və stenoqramlardan istifadə etmişdir.

***Kitabın içindəkilərdən:*** Ağrılı Şuşa hadisələri, yaxud avamlıq bəlası; İkinci Şuşa faciəsi, yaxud Qalaşçapovun hiyləsi [S. 52-63].

**1992**

**225.Hicran, F.** Qarabağda talan var / Fəridə Hicran; tərc. ed. İ. Seyidov; red.: N. Həsənzadə, M. Əvəz qızı, R. Paşabəyova. – Bakı: Gənclik, 1992. – 160 s. – *Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.*

Kitabda Azərbaycanda 1987-ci ildən bu günə qədər erməni millətçilərinin istər açıq, istər gizli apardıqları milli soyqırımı siyasətindən bəhs olunur.

Kitabda ermənilərin Şuşa həyata keçirdikləri qırğınlardan da bəhs olunmuşdur.

**1993**

**226.Gevr, J.** Xacə şah: tarixi roman / Jan Gevr; Farscadan tərcümə edəni H. Əhədi; red. G. Mehdiyev. – I kitab. – Bakı: Gənclik, 1993. – 224 s.

Romanda Güney, Quzey Azərbaycanımızda və Fars əyalətlərində baş verən ictimai-siyasi hadisələrdən, **Şuşa müharibələrindən,** böyük nüfuz sahibi siyasət və elm xadimlərindən, ən nəhayət Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar kimi qüdrətli hökmdarlardan söhbət açılır.

**1994**

**227.Gevr, J.** Xacə şah: tarixi roman / Jan Gevr; Farscadan tərcümə edəni. H. Əhədi; Red. G. Mehdiyev. – II kitab. – Bakı: Gənclik, 1994. – 224 s.

Fransız yazıçısının bu tarixi romanı XVIII əsr Azərbaycan-İran həyatından və Ağa Məhəmməd şah Qacardan onun Qafqaz, **Şuşa yürüşlərindən**, Tiflis müharibəsindən bəhs edir.

**2000**

**228.Alarlı, B.** Qarabağ şahini: (Şəhid Rauf Quliyev haqqında mənzum oçerk) / Bilal Alarlı. – Bakı: Araz, 2000. – 27 s.

**229.Cilovdarlı, A.** Türk yurdu Qarabağ-yüz il müharibə / Abbas Cilovdarlı, Şəhla Abbas qızı; red. İ. Ozanoğlu. – Bakı: Nərgiz, 2000. – 1– ci kitab. – 440 s.

***Kitabın içindəkilərdən:*** Qarabağ xanlığı və Şuşa; Türk ordusu və Şuşanın xilası. – ***XI. Şuşanın süqutu:*** Şuşa münaqişə ərəfəsində; Şuşanın müdafiəsi; Partizan əməliyyatları; Daşaltı əməliyyatları; Kirsin süqutu; Türmə ətrafında döyüşlər; Kolxozstroy ətrafında döyüşlər; Bürc-xəstəxana istiqamətində döyüşlər; Şuşa süqut saatlarında; İtkin komandirin son döyüş günü; Qarabağın sərkərdə oğlu [S. 6-10; 40-43; 264-387].

**2002**

**230.Azayev, Ə.** Qanlı gündəlik: Povest və hekayələr / Əlisəfa Azayev. – Bakı: Azərnəşr, 2002. – 240 s.

Kitabdakı povestdə Qarabağın tacı, mədəniyyət beşiyi Şuşa şəhəri uğrunda gedən döyüşlərdən bəhs olunur.

***Kitabın içindəkilərdən:*** Qanlı gündəlik: *povest* [S. 3-196].

**231.Çəmənzəminli, Y.** V. İki od arasında: roman / Yusif Vəzir Çəmənzəminli; red. Y. Qarayev; çapa haz.: A. Xəlilov, S. Ələkbərova. – Bakı: Səda, 2002. – 219 s.

Romanda Qarabağın XVIII əsrin ikinci yarısında siyasi-ictimai vəziyyəti, xanlığın İran işğalçılarına qarşı mübarizəsi, Ağaməhəmməd şah Qacarın Qarabağa hücumu və Şuşa şəhərinin müdafiəsinin daha aydın təsviri verilmişdir.

**2003**

**232.Tənha, T.** Şuşa faciəsi: şeirlər və poemalar / Təhməz Tənha; red. X. Rəhimli. – Bakı: Avropa, 2003. – 311, [1] s.

Kitabda xalqımızın başına erməni qəsbkarlarının gətirdikləri müsibətləri şair ürək ağrısı ilə qələmə almışdır.

***Kitabın içindəkilərdən***: Şuşam mənim: *şeir,* Şuşa faciəsi*: poema* [S.44, 113-210].

### 2007

**233.Ordubadi, M. S.** Qanlı illər: 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi / Məmməd Səid Ordubadi; Əsəri ərəb əlifbasından çevirən və çapa hazırlayan: Ə. Bağırov; Rəyçi M. İsmayılov, Ş. Cəmşidov. – Bakı: Qafqaz, 2007. – 184 s.

XX əsr Azərbaycan nəsrinin yaradıcılarından biri, böyük yazıçımız Məmməd Səid Ordubadi qələminin məhsulu olan, uzun illərin siyasi təbəddülatlarından keçmiş bu əsər tarixi həqiqətlərin üzə çıxarılmasına kömək edən dəyərli bir nümunədir.

***Kitabın içindəkilərdən:*** Ağrılı Şuşa hadisələri, yaxud avamlıq bəlası; İkinci Şuşa faciəsi, yaxud Qalaşçapovun hiyləsi [S. 43-52].

### 2008

**234.Dilsuz.** Şuşa / [Dilsuz; layihənin rəhbəri. Qaraqoyunlu; məsləhətçi. B. Nəbiyev; məsul red. A. Dənzizadə; rəssamlar. İ. Mehdiyev, Y. Kətanov; dizayn. A. Abdullayev]. – [Bakı]: [Beşik], 2008. – 14 s.

Pənahəli xan haqqında nağıl.

### 2010

**235.Rüstəmxanlı, S.** Difai Fədailəri: bəlgəsəl roman / Sabir Rüstəmxanlı. – Bakı: Qanun, 2010. – 446, [1] s.

Əhməd Ağaoğlu 1905-1907-ci illər erməni-müsəlman davasında erməni terrorunun qarşısını almaq üçün "Difai" adlı bir partiya və ya müdafiə təşkilatı yaratmışdı. Romanda o dövrün adamlarını müdafiə hərəkatına qoşan səbəblər, ziyalıların apardığı çətin və şərəfli mübarizə əksini tapmışdır.

***Kitabın içindəkilər:*** Şuşaya dönüş; Bakı. "Kaspi"dən doğru yola; İstanbul-Bakı arasında. – ***Difaiyə gətirən yollar.*** Bürclər kəndi; Bilal; Batumda qətl; Torpaq davası. – Bakıda tökülən qan; Barış cəhdləri; Sitarəylə söhbət; Peterburq görüşləri; Qəzet kəndirbazları; İrəvan faciəsi; Şuşa. İntibahın sonu; Zəngəzur. Kazakların xəyanəti; Alov Yelizavetpolu da yaxdı. – ***Difaiyə gətirən yollar***. Sırxavəndli uşaqlar; Cəmil və Ayçiçək. – Məmməd Əminlə tanışlıq; Bakı-Tiflis qatarında; Yolüstü görüşlər; Tiflis. Sülh danışıqları; Sülh danışıqlarının pərdə arxası; Gəncə, fevral 1906; Yenə Şuşa yolunda; Bəylərin görüşü; Nəcəf bəyin evində; Difainin Bakı mərkəzində; Həmidə xanımın yardımı və ya Ayçiçəyin tapılması; Difai-dəf etməkdir; Muxtar və oğlu; Cəmillə Ayçiçək; Hər cinayətin öz cəzası var; Heyvalı intiqamı; Bakıya dəvət; Barışıq təklifi; Yelizavetpol qubernatorluğunda; Çat; Yaxınlaşan təhlükə; Tağıyevin məsləhəti; Sonuc.

### 2011

**236.Cavadlı, M.** Riad: poema / Mahir Cavadlı; red. və ön sözün müəllifi Fikrət Qoca. – Bakı: Qismət, 2011. – 115, [5] s.

Poema Milli Təhlükəsizlik və Müdafiə Nazirliklərinin könüllü özünümüdafiə dəstələrində erməni işğalçılarına qarşı rəşadətlə döyüşmüş, 25 yanvar 1992-ci ildə Şuşa şəhəri uğrunda Daşaltı əməliyyatında itkin düşmüş Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Riad Fikrət oğlu Əhmədovun əziz xatirəsinə həsr olunmuşdur. Riadın həyatına dair faktlar əsasında bədii sənətkarlıqla qələmə alınmış bu poema xalqa, vətənə və dövlətə sədaqətin tərənnümü, milli vətənpərvərlik ruhunun yüksəldilməsi işində böyük tərbiyəvi əhəmiyyətə malikdir.

**237.Xəyal, S.** Şuşa bayraqdarını gözləyir / Sona Xəyal; red. M. Nəcəfova. – Bakı: [MBM], 2011. – 79, [1] s.

***Kitabın içindəkindən:*** Şuşa bayraqdarını gözləyir (3 pərdəli, 6 şəkilli); İtirdiklərimiz qayıdacaq özümüzə qayıdacaq [S. 5-29, 39].

**238.Süleymanlı, Ş.** Qarabağ müharibəsi: iki kitabdan ibarət tarixi roman / Şamil Süleymanlı; red. R. Məmmədzadə. – Bakı: Yazıçı, 2011. – 453, [1] s.

Kitabda Azərbaycanın əzəli torpağı – Qarabağın, Şuşanın tarixi, ermənilərin XIX əsrin əvvəllərində, Rus imperiyasının birbaşa köməyi sayəsində ölkəmizin ərazilərində məskunlaşmalarından, azərbaycanlıları vəhşicəsinə qırmaların-dan, var-dövlətlərini talan eləmələrindən, şəhərləri, kəndləri viran qoymalarından da bəhs olunur.

**2012**

**239.Ordubadi, M. S.** Qanlı illər: 1905-1906-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi: [sənədli povest] / Məmməd Səid Ordubadi; ərəb əlifbasından çevirən, sadələş. çapa haz. Ə. Bağırov; Qafqazın Strateji Tədqiqatlar İnstitutu. – Bakı: Elm və təhsil, 2012. – 118, [2] s.

***Kitabın içindəkilərdən:*** Ağrılı Şuşa hadisələri, yaxud avamlıq bəlası; İkinci Şuşa faciəsi, yaxud Qalaşçapovun hiyləsi [S. 43-52].

**240.Rüstəmxanlı, S.** Difai Fədailəri: bəlgəsəl roman / Sabir Rüstəmxanlı. – Bakı: Qanun, 2012. – 446 s.

Əhməd Ağaoğlu 1905-1907-ci illər erməni-müsəlman davasında erməni terrorunun qarşısını almaq üçün “Difai” adlı bir partiya və ya müdafiə təşkilatı yaratmışdı. Romanda o dövrün adamlarını müdafiə hərəkatına qoşan səbəblər, ziyalıların apardığı çətin və şərəfli mübarizə əksini tapmışdır.

